# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 24 (3440) Cümə axşamı / 23-29 iyun 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

# Yeni Laçın yolu və Zəngəzur dəhlizi



**Mahir Abbaszadə,**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Gənclər və idman komitəsinin üzvü

***Hazırda Laçın şəhərindən Ermənistan üçün müvəqqəti açıq saxlanılan humanitar dəhlizin Zəngəzur dəhlizinə alternativ olaraq hansı şərtlər daxilində saxlanacağı müzakirə olunur. Bu gün regiona Laçından baxsaq, reallıqlar nədən ibarədir? Bu istiqamətdə "Həftə içi"nə danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Gənclər və idman komitəsinin üzvü Mahir Abbaszadə mühüm məqamlara toxunub.***

*Laçın kəndlərinin baş planlarının hazırlanması prosesi sürətlə gedir*

Səh. 2

# 104 yaşlı Azərbaycan Ordusu

**26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri günüdür. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilib. Ümummilli lider hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalayıb. Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılıb. Yarandığı ilk gündən əsas vəzifəsi vaxtilə işğal edilmiş əraziləri azad etmək, ölkənin suverenliyi və ərazi bütövlüyünü qorumaq olan Silahlı Qüvvələrimiz müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində şanlı zəfər qazandı və 30 illik işğala son qoyaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.**





## Ali Baş Komandan İlham Əliyev: Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır

**Hafta.az Silahlı Qüvvələr günü ilə bağlı 1991-ci ilin payızından, yəni müstəqilliyimizin bərpasından sonra Milli Ordumuzun formalaşmasında önəmli rol oynamış müdafiə nazirinin sabiq müavini, polkovnik Mehman Səlimov və 1991-1994-cü illərdə Azərbaycan Milli Ordusunun formalaşmasında və işğalçı ermənilərə qarşı döyüşlərdə fəal iştirak etmiş keçmiş tabor komandiri, mayor Gəray Əsədovla ordumuzun keçmişi və bu günü ilə bağlı bir çox məqamlara aydınlıq gətirməyə çalışıb.**

**Mehman Səlimov, polkovnik:**

- Mehman müəllim, bilirik ki, 1991-ci ilin, demək olar ki, sonunadək sovet ordusunda xidmət etmisiniz. 1989-cu ildən Gəncədə, 1990-cı ildən isə Bakıda olmusunuz. Həmin illər Qarabağda qondarılmış münaqişə, artıq tədricən silahlı qarşıdurma müstəvisinə keçməkdə idi. O vaxtlar Qarabağın və digər torpaqlarımızın müdafiəsi üçün nə edə bilirdiniz?

- Bakıya 1990-cı ilin sentyabrında gəldim və diviziya komandirinin siyasi işlər üzrə müavini işləməyə başladım. O dövrdə xalq fəalları ilə birgə müxtəlif yollarla hərbi hissələrin anbarlarından silah əldə edib Qarabağa yollamağa çalışırdıq. Bəzən bunu imkanlı soydaşlarımızın topladığı maliyyə hesabına da edirdik... Diviziya komandiri Antonovla razılaşırdıq. Pulu ona sonradan Azərbaycan Müdafiə Nazirliyində məsul vəzifələrdə olmuş o zaman diviziyada kəşfiyyat taborunun qərargah rəisi işləyən Mudrak verirdi. Komandirlə şərikinə işləyirdilər. Məsələn, danışırdıq ki, gecə saat 3-də Üçtəpə poliqonundakı anbardan maşın çıxacaq. Anbarın mühafizəsindəki əsgərlərlə yalançı döyüş imitasiyası yaradıb onları tərksilah edirdik. Sonra da silah-sursatı maşınlara yığıb Şuşa, Laçın, Qubadlı, Kəlbəcərə və s. daşıyırdıq...

**Gəray Əsədov, mayor:**

- 1991-ci ildə dövlət müstəqilliyimiz bərpa olsa da, ilk kövrək addımlarını atan müstəqil dövlət üçün ordu yaratmaq çox çətin məsələ idi. Sonrakı illərdə baş verənlər də sübut etdi ki, Rusiya imperiyası və onun dövlətimizin, hərbçilərimizin arasına yerləşdiyi agentura və təxribat şəbəkələri bu prosesə böyük maneələr törədirdi. Eyni zamanda erməni terrorçuların ara verməyən hücum və diversiyaları ordunu dinc şəraitdə düzgün formalaşdırmağa imkan vermirdi. 1991-ci ilin yayında mən baş leytenant kimi Tərtər-Ağdərə istiqamətində döyüşlərə başlayan könüllülərdən ibarət "Qurtuluş" taborunun tərkibində bölük komandiri kimi vuruşurdum.

Təsəvvür edin ki, həmin istiqamətdəki 42 km-lik müdafiə rayonunu yalnız könüllülər və polis dəstələri, özü də əsasən öv tüfəngləri ilə qorumağa çalışırdı. Silah-sursat texnika çatışmırdı.

Yəni düşmən hücumlarının qarşısını almaq, torpaqlarımızı mümkün qədər qorumaq üçün hansısa formada müdafiə birlikləri yaradılmalıydı. 1991-ci ilin sentyabrında rəsmən Müdafiə Nazirliyi yaradılması haqda qərar verildikdən sonra ilk hərbi hissələr də formalaşmağa başladı.

Səh. 4

MÜSAHİB



**Sülhəddin Əkbər,**
Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri, politoloq

■ Qarabağda tam və qəti qələbəmiz üçün kollektiv Qərblə birgə Ukraynanın yanında olmalıyıq

■ Yəni hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq o məcburdur ki, Azərbaycanla həmin müttəfiqlik münasibətlərinə və onlardan irəli gələn öhdəliklərə əməl etsin.

■ Rusiya torpaqlarımızdakı qüvvələrindən nə qədər çıxarsa da, yenə orada qalan həbçilərin sayı 1960-dan çox olur...

Səh. 5

GÜNÜN FOTOSU...



**Fransada keçmiş rəqiblər Yelisey sarayında danışıqlardan sonra**

GÜNÜN SİTATI



*"Məcburi köçkün soydaşlarımıza pay torpaqları veriləcək"*

**Emin Hüseynov,**
Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

KARİKATURA




**Minsk Qrupu təqaüdə göndərildi**

## İki türk dövlətini daha da yaxınlaşdıran səfər

**Eldəniz Əmirov,**
iqtisadçı-ekspert

Azərbaycan tranzit ölkə kimi Özbəkistana həm maddi, həm mənəvi, strateji cəhətdən öz dəstəyini göstərə bilir.

Səh. 3

STATİSTİKA



■ **Bu ilin yanvar-may aylarında Azərbaycana 26 716,9 min dollar dəyərində 15 340,04 ton ət idxal edilib.**

Bu, bir il öncəki göstəricidən müvafiq olaraq dəyər ifadəsində 3,5%, həcm göstəricisi üzrə isə 4,5% çoxdur. Hesabat dövründə, ölkəyə 6 670,5 min dollar dəyərində (artım 39,7%) 4 482,73 ton (artım 40%) süd idxal olunub. Bununla yanaşı, cari ilin ilk beş ayında 49 646,04 min dollar dəyərində 8 927,55 ton kərə yağı və süddən hazırlanan digər yağlar idxal olunub ki, bu da müvafiq olaraq 51,6% və 32,7% çoxdur.



Səh. 6

# Yeni cərimələr müəyyən edilir

**PREZİDENTİN İŞ GÜNÜ**

# President Xivəyə səfər edib



**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xivə şəhərində "Nurullaboy" saray kompleksi ilə tanış olublar. Saray kompleksi barədə dövlət başçılarına məlumat verilib.**

Bildirilib ki, əzəməti və gözəlliyi ilə məşhur olan "Nurullaboy" saray kompleksi Xivə xanı II Məhəmməd-Rəhimbayanın əmri ilə 1906-1912-ci illərdə tikilib. Dörd hissədən ibarət saray kompleksinə ümumilikdə 100-dən çox zal və otaq, o cümlədən mərasim və məhkəmə zalları, yaşayış binaları və mədrəsə daxildir. Saray kompleksindəki bütün tikililər uzunluğu 650 metrdən çox olan güclü istehkamla əhatə edilib. Qala divarı üzərində yarımdairəvi qüllələr ucaldılıb. Rusiya imperatoru II Nikolay kompleksin tikintisi başa çatdıqdan sonra saraya iki çilçıraq və kiçik bir elektrik stansiyası bağışlayıb.

"Nurullaboy" sarayı milli və Avropa memarlıq üslublarının vəhdəti əsasında inşa olunub. Bu da həmin dövrdə şəhərsalma sahəsində üstünlük təşkil edən üslubla əlaqədardır. Qızılı və rəngli rəsmlərlə örtülmüş məşhur Xivə oymaları sarayın cəlbediciliyini daha da artırır.

Saray kompleksində daimi rəsm sərgiləri fəaliyyət göstərir, tarixi sənədlər, milli geyim nümunələri nümayiş olunur.

**Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 22-də Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olublar.**

İçan-Qala barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi 1920-ci ildə yaradılıb. 1969-cu ildə tarixi İçan-Qala şəhəri muzey-qoruq elan edilib. Xivə şəhəri qədim Xivə xanlığının paytaxtı olub. Xivə şəhərindəki nəhəng İçan-Qala kompleksini gil divarlar əhatə edir. İçan-Qala da daxil olmaqla Xivə şəhəri 1990-cı ildə UNESCO-nun maddi mədəni irs siyahısına daxil edilib. Sarayı gəzdikcə divarlarda diqqət çəkən mavi ornamentlər göz oxşayır, insan bir anlıq özünü orta əsrlər saray dövründə təsəvvür edir. Muzeyin fondunun əsasını xan dəftərxanasının sənədləri və sarayın müxtəlif əşyaları təşkil edir.

Qeyd edildi ki, ümumi sahəsi 26 hektar olan muzeydəki ekspozisiyalar Özbəkistanın qədim tarixini və müasir dövrünü əlaqələndirir. Burada Xivə xanlığının, qədim Xarəzmin tarixi, etnoqrafiyası, sənət nümunələri, müxtəlif kolleksiyalar ilə bağlı 14 stasionar muzey və ekspozisiyalar var. Muzeydə, həmçinin Xivə xanlığının tarixi barədə nəşrlər nümayiş etdirilir. Muzeyin əsas işi eksponatların toplanması, onların öyrənilməsi, nümayişi və abidələrin mühafizəsindən ibarətdir.

**İyunun 22-də Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev** tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edilib. Qəbulda konsert proqramı təqdim olunub. Dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.

**Prezident Şavkat Mirziyoyev:** Əvvəlcə, bu gün bizim sənətçilər dostum, qardaşım İlham Heydər oğluna gözəl Xivədə, Özbəkistanda bizim mədəniyyətimizi, sənətimizi və onların yaxınlığını göstərdilər. Mən Sizə olduqca minnətdaram və bu gün çox qurur hissi keçirdim ki, qardaşımla bir dildə danışdıq və aramızda tərcüməçi yox idi. Bu sənətçilər bizim mədəniyyətimizi, tariximizi, soykökümüzü, birliyimizi dərin sevgi, məhəbbət və ehtiramla tərənnüm etdilər, göstərdilər ki, bu iki böyük xalqın tarixi birliyi və gələcəyi həqiqətən də sarsılmazdır. Biz dünəndən dostluğumuz, əlaqələrimiz haqqında danışır və müzakirələr aparırıq. Lakin bu gün bizə bunu əməli olaraq sənət ilə göstərdiniz. Mən sizə minnətdaram.

Son illər bizim mədəniyyətimizə, tariximizə, ümumiyyətlə, makomumuza və muğamımıza ehtiramla yanaşmağımız təqdirəlayiqdir. İllər ötəcək, əsrlər keçəcək və gələcəkdə siz bu mədəniyyətin iştirakçıları olacaqsınız. Övladlarınız, qonşularınız, dostlarınız həmişə bu mədəniyyət ilə təmasda olacaqlar. Mən qardaşım İlham Heydər oğluna məmnuniyyətlə demək istəyirəm ki, bu gün sənətçilər bizə Yeni Özbəkistanda yeni mədəniyyəti göstərdilər.

**Prezident İlham Əliyev:** Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı. Mənim dövlət səfərim bu gün başa çatır. Dünən Daşkənddə, bu gün Xivədə, Ürgəncdə, Xarəzm vilayətində olmağımdan çox məmnunam. Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu, nəyi göstərir? Xalqlarımızın birliyini. Siz Türk mədəniyyətimizi tərənnüm edən ifaçılar, sənətkarlar və mədəniyyət ustadları bizim fəxrimizsiniz.

Şavkat Miromonoviçlə bu masa arxasında söhbət əsnasında o, hər bir ifaçının adını bilirdi. Bilirdi harada oxuyub, bu, Bakıda oxuyub, o orada oxuyub, bu, mədəniyyət naziridir, o orada. Bu, onu göstərir ki, Prezident hər bir sənət adamının məsələləri ilə şəxsən məşğul olur. Onun sizə olan sevgisi özbək xalqına olan sevgisidir.

Bu gün yeni Özbəkistanı mən özüm üçün kəşf etdim. Yeni Özbəkistan qardaşımın simasında, sizin simanızda çiçəklənir. Yeni Özbəkistanın həyatı uğurlu olsun, xeyirli olsun. İnşallah, hamımız - özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacağıq.

Səfər başa çatıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Yeni Laçın yolu və Zəngəzur dəhlizi

***Hazırda Laçın şəhərindən Ermənistan üçün müvəqqəti açıq saxlanılan humanitar dəhlizin Zəngəzur dəhlizinə alternativ olaraq hansı şərtlər daxilində saxlanacağı müzakirə olunur. Bu gün regiona Laçından baxsaq, reallıqlar nədən ibarədir? Bu istiqamətdə "Həftə içi"nə danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Gənclər və idman komitəsinin üzvü Mahir Abbaszadə mühüm məqamlara toxunub.***

## Gündəm

***- Mahir müəllim, bu gün Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi, eləcə də sülh carçısı olan beynəlxalq təşkilatların mövcud reallıqda proseslərə münasibəti nədir?***

- Azərbaycan 2020-ci ilin noyabr ayından sonra yeni reallıqları ortaya qoyub. Bu gün tamamilə başqa bir Azərbaycanın, başqa bir Cənubi Qafqazın şahidləriyik. Azərbaycanın yaratdığı bu reallıqlar postmüharibə dövründə özünü daha çox büruzə verməkdədir. Ölkə rəhbərliyinin qeyd etdiyi kimi, əgər müharibə bitibsə, Dağlıq Qarabağ mövzusu tarixə qovuşubsa, deməli, postmüharibə dövründə yaranan yeni reallıqlara uyğun olaraq, sülh müqaviləsi imzalanmalıdır. Yeni reallıqlar kommunikasiyaların, Zəngəzur dəhlizinin açılması, quru yolların bərpa edilməsi, sərhədlərin delimitasiya və demorkasiyasının başa çatdırılması, dövlətlərin bir-birinin ərazisinə və ərazi bütövlüyünə hörmətlə yanaşmasını və bütün işlərin sülh şəraitində davam etdirilməsini tələb edir. Bunun ən müsbət tərəfi ondan ibarətdir ki, Azərbaycanın ortaya qoyduğu sülhə aparacaq 5 baza prinsipini Rusiyanın Prezidenti Vladimir Putin, eyni zamanda, Avropa İttifaqının rəhbəri Şarl Mişel dəstəkləyib.

***- Zəngəzur və Laçın dəhlizi ətrafındakı proseslər sülh masasına, yoxsa antiterror əməliyyatlarına aparıb çıxaracaq?***

- 10 noyabr bəyanatının həyata keçirilməsində əsas tərəflər Azərbaycan və Ermənistandırsa, ən böyük cavabdeh Rusiyadır. Prezident Vladimir Putinin bu sənədin altında imzası var. Xatırlayırsınızsa, həmin vaxtlar Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında qeyd edirdi ki, Vladimir Putin məndən xahiş etdi ki, biz Ermənistanın təslimçi çağırışlarına müsbət reaksiya verək. Biz də bu məsələni ortaya qoyduq ki, saziş imzalanacaqsa, o sənəddə iki maddə öz əksini tapmalıdır. Maddələrin birində qeyd olunur ki, sülhməramlılar Azərbaycanın Qarabağ bölgəsinə daxil olduğu andan Ermənistan silahlı birləşmələri həmin ərazilərdən çıxmalıdır. Bu sirr deyil ki, Ermənistan tərəfi ilk vaxtlar bunu həyata keçirməyə başladısa, sonrakı müddətdə gördük ki, Qarabağın müəyyən bir yerində hələ də silahlı birləşmələr qalmaqdadır. Bu, əlbəttə ki, nəinki Qarabağda, elə ondan kənarda da sülhə və təhlükəsizliyə təhdiddir. Həmin zamanlar işğaldan azad etdiyimiz Xocavənd rayonunun meşələrində bir qrup terrorist Azərbaycan Silahlı Qüvvələri tərəfindən zərərsizləşdirildi. Əgər həmin terrorçuların bir qismi Ermənistandan Laçın dəhlizi vasitəsilə Qarabağa daxil olmuşdularsa, bir qismi Qarabağda olan Azərbaycana qarşı döyüşən separatçılar idi. Yəni sazişdə bu müddəa bu günə qədər icra edilmir. Əslində, rus sülhməramlıları bu müddəanın icra olunmasını təmin etməlidirlər, amma etmirlər...

***- Niyə, səbəb nədir?***

- Burada yenə də ikilistandartlı mövqe ortaya çıxır. Sülhməramlılar bölgədə özlərinin vacibliyini göstərmək üçün hələ ki, bu müddəanın tamamilə icra olunmasını icra etmək istəmirlər. Bəli, demək olar ki, Qarabağda olan erməni silahlıları əvvəlki kimi ağır texnikalara malik deyillər, amma bütün hallarda bu, təhlükəsizliyə təhdiddir. Azərbaycan ərazisində ancaq Azərbaycanın silahlı qüvvələri ola bilər, digər bütün silahlı birləşmələr qeyri-qanunidir və bunlar qanunla qadağan edilir. Burda isə birbaşa cavabdeh Rusiyadır.

İkinci müddəa isə kommunikasiyaların və quru yolların bərpası ilə bağlıdır. Əgər Ermənistan tərəfi çıxışlarında qeyd edirsə ki, sazişdə "Laçın dəhlizi" sözü var, amma Zəngəzur dəhlizi sözü yoxdur", o zaman sual olunur: bəs Azərbaycanın Ermənistan ərazisindən keçərək Naxçıvanla birləşən yolun bərpası hansı ərazidən keçməlidir. Onda belə çıxır ki, biz gedib Sisyandan, Yerevandan keçməliyik? Yox, bizə ən yaxın ərazi tarixi Zəngəzur ərazisidir. Biz ona "tarixi Zəngəzur" ona görə deyirik ki, o ərazilər bizim torpaqlardır. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Möhtərəm prezident IX Qlobal Bakı Forumunda bunu çox açıq-aydın qeyd elədi. Dedi ki, 1920-ci ilin noyabrında Azərbaycanda sovet hökuməti qurulandan sonra sovetlərin fərmanı ilə Qərbi Zəngəzur tamamilə alınıb Ermənistana verilib. Həmin vaxtın statistikasında görünür ki, Qərbi Zəngəzurda bir nəfər də olsun erməni yaşamayıb. Hamısı azərbaycanlılar olub. Əgər Ermənistan Qarabağla bağlı "status" və yaxud başqa fikirlərə düşsə, belə çıxır ki, biz də Qərbi Zəngəzur məsələsini qaldırmalıyıq. Yəni bu gün Azərbaycan tərəfinin qaldırdığı məsələ Laçın dəhlizinin fəaliyyət göstərməsi ilə bərabər, Zəngəzur dəhlizinin açılması məsələsidir. Avropa Şurası bu layihəni dəstəkləyir. Layihənin Ermənistan tərəfindən keçən hissəsinin tikintisi ilə bağlı Avropa İttifaqının vəsait ayırması ilə bağlı razılığı da var. Eyni zamanda beynəlxalq təşkilatlar bunu dəstəkləyir. Bu yaxnlarda Bakıda İƏT-in konfransda qəbul olunmuş bəyanatın maddəsində xüsusilə yazılır ki, İƏT üzvləri gələcəkdə loqistik imkanların yaxşılaşdırılması, iqtisadi həyatın əlverişli olmasını dəstəkləmək nöqteyinəzərindən Zəngəzur dəhlizinin açılmasını dəstəkləyir. Bu artıq beynəlxalq sənədlərdə öz əksini tapmaqdadır.

Eyni zamanda Şuşa Bəyannaməsinə baxsaq, orada da Türkiyə tərəfindən Zəngəzur dəhlizinin açılması dəstəklənir.

Zəngəzur dəhlizinin açılmaması səbəblərindən biri hələ ki, Laçın dəhlizi ilə bağlı məsələnin tam aydınlaşmaması ilə bağlıdır. Laçın dəhlizi Laçın şəhərinin mərkəzindən keçir, demək olar ki, biz hardasa bu dəhlizlə bağlı məsələlərə o qədər də ciddi yanaşmırıq. 10 Noyabr sazişinin müddəalarına uyğun olaraq, Azərbaycan tərəfi yaxın 3 il müddətində Laçından yan keçən alternativ yolun çəkilməsini öz üzərinə götürüb. Məndə olan məlumta görə, bu yeni dəhlizin Ermənistana birləşdirilməsi bu gün Qarabağın ərazisində yaşayan erməni əsilli vətəndaşların Ermənistana gediş-gəlişini asanlaşdırmaq məqsədilə iyul-avqust aylarında istifadəyə verilməlidir.

*Laçın kəndlərinin baş planlarının hazırlanması sürətlə gedir*

***- Ermənilər həyəcan təbili çalır ki, Paşinyan iyulun 1-də Laçın dəhzilini təhvil verəcək...***

- Məsələ ondan ibarətdir ki, bu dəhliz indiki Laçın şəhər mərkəzindən yox, yeni çəkiləcək yol ərazisindən keçəcək. Laçın mərkəzidə yerləşən rus sülhməramlıları isə artıq yeni çəkilmiş yolun təhlükəsizlik məsələlərinə baxacaq. Belə olduğu təqdirdə Laçn şəhərində yaşayan 3-4 erməni ailəsi, Zabux kəndində yaşayan 4-5 erməni ailələri artıq bu əraziləri tərk edib gedəcəklər. Çox maraqlı haldır ki, nə Laçın şəhər mərkəzində, nə də Zabuxda yaşayan ermənilərin heç bir statusu yoxdur. Onlar nə Azərbaycan, nə də Ermənistan vətəndaşları deyillər. Bəziləri Suriyadan, digər yerlərdən o yerlərə qeyri-qanuni köçürülüblər. Ermənistan narahat olub ki, yenə də böyük qaçqın ordusu ilə üz-üzə qalacaq. İkinci mühüm cəhət ondan ibarətdir ki, bu gün Qarabağda yaşayan ermənilərin işıq və qazla təminatını təşkil edən xətlər Laçının mərkəzindən keçir. Sülhməramlıların Laçın şəhər mərkəzindən çıxması nəticədə həmin qaz və işıq xətlərinin Azərbaycan tərəfinin nəzarətinə keçməsinə gətirib çıxardacaq. Bu da Ermənistan tərəfdə narahatlıq yaradır.



**Mahir Abbaszadə,**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Gənclər və idman komitəsinin üzvü

Üçüncü məsələ odur ki, Azərbaycan tərəfi yeni dəhlizi istifadəyə verdikdən sonra cənab Prezident bu dəhlizin Zəngəzur dəhlizi ilə eyni hüquqa malik olacağını indidən ən yüksək tribunalardan elan edib. Bildirib ki, əgər Ermənistan gələcəkdə Zəngəzur dəhlizinin açılmasına, istifadə edilməsinə indiki münasibəti sərgiləyəcəksə, deməli Azərbaycan tərəfi də Laçın dəhlizinin nəzarətdə saxlanmasını, karidorunun sonunda Azəbaycan silahlı qüvvələri Qarabağda yaşayan ermənilərin Ermənistana gediş-gəlişi ilə bağlı yoxlama və digər əməliyyatların keçirilməsini özündə saxlayır. Ölkə rəhbəri açıq şəkildə bütün tirbunalardan bunu qeyd edir. Ermənistan tərəfi bunu özləri üçün təhlükə görür və guya qarşısını almaq üçün nümayişlər keçirir, Azərbaycana şər-böhtan atır, "Zəngəzur dəhlizi" yoxdur deyir. Müharibədən yeni çıxdığımız ərəfədə möhtərəm prezidentin bir bəyanatı var idi. Orada qeyd edilir ki biz Ermənistan istəsə də, istəməsə də, ya zorla, ya xoşluqla Zəngəzur dəhlizinin açılmasına nail olacağıq.

***- Laçına yeni yolun çəkilisi zamanı hansi kəndlər boşaldılacaq?***

- Məndə olan məlumata görə, indi Laçın rayonunun şəhər mərkəzindən keçən dəhliz Laçın rayonunun Ağanus, Qarıkaha, Sus, Zabux kəndlərini əhatə edir. İndiki hazırda şəhər mərkəzi və sadaladığım kəndlər rus sülhməramlılarının nəzarəti altındadır. Biz hazırda dəhlizin enini 5 kilometr nəzərdə tuturuq. Bu 5 kilometr sərhəddə isə rus sülhməramlıları təhlükəsizlik tədbirləri görür. Amma yeni dəhliz istifadəyə verildikdən sonra Laçın şəhərində bir qədər əvvəl sadaladığımz kəndlər tamamilə boşaldılacaq və bizim istifadəmizə veriləcək. Hazırda Azərbaycanın kəndlərindın çəkilən yeni dəhliz Qayğı qəsəbəsindən keçərək Ermənistanın ərazisinə daxil olur. Qayğı qəsəbəsindən keçən yol Qubadlı rayon istiqamətindən Laçın şəhər mərkəzinə gedən yolda kəsişir. Məndə olan məlumata görə, o kəsişməni aradan qaldırmaq üçün çox böyük hündürlükdə körpü tikilib. O körpü erməniləri öz istiqamətinə aparacaq və Laçın rayonuna gedən istiqamətdə də heç bir kəsişmə baş verməyəcək. Qeyd etdiyim kimi, bu gün Laçın şəhərinin mərkəzində fəaliyyət göstərən rus sülhməramlıları yeni yolun çəkilişindən sonra yeni dəhlizin mühafizəsi ilə məşğul olacaqlar. Təbii ki, həmin yolda olmasa da, amma o yola yaxın məsafələrdə Azərbaycan tərəfi də öz postlarını qoyub onun mühafizəsi ilə məşğul ola bilir. Bu da yəqin ki, müvəqqəti hal daşıyacaq. Müqavilədə qeyd olunur ki, 4 il 6 aydan sonra, yəni müqavilənin müddətinin bitmsinə 6 ay qalmış tərəflərdən biri sülhməramlıların burada xidmət etməsinə etiraz edəcəksə, sülhməramlılar çıxıb gedəcək.

***- Laçın şəhərinin baş planı hazırlanırmı?***

- Cənab Prezidentin tapşırığına əsasən Azərbaycan Respublikasının Şəhərsalma Arxitekura Komitəsi tərəfindən işğaldan azad olunmuş ərazilərin - həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarının baş planının hazırlanması prosesi gedir. Məndə olan məlumata görə, artıq bəzi rayonların baş planları cənab Prezidentə təqdim edilib.

Laçın şəhər mərkəzinin baş planının hazırlanması mərhələsi başlasa da, işin gedişinin sürəti zəifdir. Bunun da əsas səbəbi odur ki, bu gün Laçın şəhərinin mərkəzində rus sülhməramlıları fəaliyyət göstərir. Onlar yeni yolun mühafizəsi ilə məşğul olduqdan sonra bu iş daha sürətlə gedəcək. Buna baxmayaraq, Laçın kəndlərinin baş palanlarının hazırlanması sürətlə gedir. Məndə olan məlumata görə, bəzilərinin müfəssəl planı hazırlanır. Buna misal olaraq Güləbird, Qorçu, Şəlvə kəndlərini göstərə bilərəm. Artıq bu kəndlərdə Baş planla bağlı yekunlaşma işləri gedir. Bundan sonra baş planın müfəssəl hazırlanması, layihləndirmə və sonra tikinti prosesinə başlanacaq...

***- Ermənistan bu 30 il ərzində Azərbaycana böyük zərərlər vurub və buna görə mütləq təzminat ödəməlidir. Bu məsələdə "humanistlik" adı ilə təzminatın ödənilməsindən imtina məsələsi ortaya çıxarıla bilər?***

- Yox!.. Biz müharibə dövründə və sonrakı mərhələdə artıq gördük ki, Ermənistan tərəfi işğal etdiyi Azərbaycan ərazilərində həyatı məhv edib. Bütün sosial, yaşayış obyektlərini dağıdıb, Azərbaycanın təbii sərvətlərini talan edib xarici ölkələrə satıb, böyük vəsaitlər əldə edib. Bu ərazilərdə olan təbii sərvətlərə, xüsusən də fauna və florasına olduqca ciddi zərbələr vurub. Azərbaycanın tarixi, mədəni abidələrini tamamilə darmadağın ediblər. Heydər Əliyev Fondu və Mehriban xanımın rəhbərliyi ilə tarixi abidələrin bəzilərinin bərpa prosesi sürətlə gedir. Tarixi abidələrimizin böyük əksəriyyətini tamamilə yer üzündən siliblər. Bütün bunlar Azərbaycan xalqına vurulmuş böyük ziyanlardır. Bilirik ki, cənab Prezidentin tapşırığına əsasən beynəlxalq ekspertlər vurulmuş maddi-mənəvi zərərin hesablanması ilə bağlı bu məsələyə cəlb edilib. Dəymiş ziyan hesablanıb bitdikdən sonra, artıq Ermənistan tərəfi beynəlxalq məhkəmələrdə cavab verməlidir. Azərbaycan xalqı bu təzminatın hansısa bir formada ödənilməsini səbirsizliklə gözləyir. Bu dəfə Ermənistan tərəfinə layiqli dərs verilməlidir.

Necə ki, cəbhədə o dərsi vermişik. Postmüharibə dövründə də Ermənistan tərəfi layiqli dərsini almalıdır ki, bir də Azərbaycan ərazilərini işğal etmək və ərazilərimizə ziyan verməklə bağlı fikirlərə düşməsin. Bu istiqamtdə müəyyən işlər gedir. Düşünürəm ki, biz beynəlxalq məhkəmələrdə Ermənstanın cavab verməsi və təzminatın ödənilmsi məsələsini gündəliyə gətirəcəyik.

***✍ Tahirə Qafarlı***

# Yeni avtomobil yolunun asfaltlanmasına başlanılıb

***İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində əsas prioritetlərdən biri yol infrastrukturunun bərpasıdır.***



Bu çərçivədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan yol infrastrukturu layihələrindən biri də Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolununun tikintisidir. Artıq yolun asfaltlanmasına başlanılıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində bütün avtomobil yolları iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilir. Bu isə həmin yaşayış məntəqələrində yaşayacaq əhalinin, həm də yoldan istifadə edəcək vətəndaşların rahatlığı baxımından önəmlidir. Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun inşası da məhz bunlar nəzərə alınaraq aparılır.

Yeni avtomobil yolunun uzunluğu 32 km təşkil edir. Yoxuşlarda 3, digər hissələrdə 2 hərəkət zolaqlı olacaq yolun layihə üzrə hərəkət hissəsinin eni 7-10.5 metr, torpaq yatağının eni 12-15 metr, çiyin hissələrin eni isə 2x2.5 (5 m) metr təşkil edir.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Layihəyə uyğun olaraq torpaq yatağının tikintisi, suni qurğuların inşası işləri görülür. "İnşaat Norma və Standartları"na uyğun olaraq yararsız qrunt, həmçinin torpaq yatağının genişləndirilməsi üçün bitki qatının qazılaraq çıxarılması işləri görülür, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması, yeni torpaq yatağının və yol əsasının inşası həyata keçirilir. Yol əsası hazır olan hissədə yeni asfalt-beton örtüyünün döşənməsinə də start verilib.

Çətin relyefə malik olan ərazidən keçən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi borular və müxtəlif süni qurğuların tikintisi də icra olunur. Bu çərçivədə yolun 22-ci km-də inşa edilən və uzunluğu 149.5 metr, eni 13.5 metr olan 4 aşırımlı körpüdə hazırda tikinti işləri son mərhələ üzrə icra olunur.

Yeni avtomobil yolunun inşası tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla AAYDA-nın rəhbərliyinin nəzarəti altında həyata keçirilir. Tikinti işlərinin cari il ərzində yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

BÜTÜN YOLLAR QARABAĞA APARIR...

# İki türk dövlətini daha da yaxınlaşdıran səfər

**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana ikigünlük səfəri davam edir. Qlobal hərbi, siyasi və iqtisadi böhranların kəskinləşdiyi bir vaxtda iki qardaş dövlət arasında ən yüksək səviyyədə səfərin təşkili, əlbəttə, çox sayda yeni sazişlərin imzalanması və ən əsası, iki dövlət arasında yaxın gələcəkdə iri layihələrin icra edilməsi, bütövlükdə türk dünyasının daha sıx birləşməsinə və bütünləşməsinə təkan verəcək öhdəliklərə imza atılması baxımından səfər böyük əhəməyyətə malikdir. Elə bu səbəbdəndir ki, Azərbaycan və Özbəkistan prezidentləri bu səfəri tarixi səfər kimi xarakterizə ediblər.**



## Təhlil

Əslində, türk soyundan olan Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi qardaşlıq əlaqələri mövcuddur. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Təsadüfi deyildir ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə alıb.

**Dostluq əlaqələrinin daha bir göstəricisi isə, XVI-XVII əsrlərdə yaşamış Azərbaycan filosofu, şairi və böyük din xadimi, əslən Qarabağdan olan Yusif ibn Məhəmmədcan Qarabağinin məzarın hazırda Səmərqənddə yerləşməsidir. Eyni zamanda, İçərişəhərdə yerləşən, XV əsrə aid Buxara karvansarayı adından da göründüyü kimi, Mərkəzi Asiyadan gələn tacirlər tərəfindən inşa edilib. Sadalanan bu faktlar iki xalq arasındakı əlaqələrin keçmişindən xəbər verir.**

Çox maraqlıdır ki, prezident İlham Əliyevin Özbəkistana rəsmi səfəri Ümummilli lider Heydər Əliyevin bu ölkəyə səfərinin 25 illiyinə təsadüf edir. Daşkənddə Heydər Əliyev meydanının açılışı, prezident Şavkat Mirziyoyevin Ulu öndər Heydər Əliyev barədə fikirləri həqiqətən də qardaş ölkədə Azərbaycan xalqının Ümummilli liderinə dərin rəğbət və böyük hörmətin olduğunu nümayiş etdirir.

Bu yerdə qeyd edək ki, Heydər Əliyev özbək xalqına böyük hörmət və dərin sevgi ilə yanaşıb. 1970-ci illərdə də onun Şərəf Rəşidov, 1990-cı illərdə İslam Kərimovla dostluq münasibətləri olub ki, bu da Azərbaycan və Özbəkistan xalqları arasında münasibətlərin bugünkü inkişafının təməli olub.

Heydər Əliyev meydanının açılışı zamanı Özbəkistan prezidenti bildirib ki, XX əsrin böyük siyasətçisi olmuş Heydər Əliyevi hamı yaxşı tanıyır. "O, bütün həyatını doğma Azərbaycana həsr edib, ən ağır vaxtında dövlətin çətinliklərlə dolu məsuliyyət yükünü öz üzərinə götürüb, bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib. O, həqiqətən müstəqil Azərbaycanın memarı idi. Onun zəngin rəhbərlik təcrübəsi gənc, müstəqil dövləti xilas edib. İyunun 15-i Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilir. Məhz həmin gün Heydər Əliyev ölkə rəhbərliyinə qayıdıb və Azərbaycan Ali Sovetinin sədri seçilib", - deyən Mrziyoyev əlavə edib ki, Heydər Əliyevi Azərbaycan xalqının tarixindən və həyatından ayırmaq olmaz.

**Heydər Əliyevin vətənpərvər ruhlu şəxsiyyət olduğunu qeyd edən Özbəkistan prezidenti bildirib ki, Heydər Əliyevin ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək bu arzunu uğurla həyata keçirdi.**

Prezident İlham Əliyevin səfəri çərçivəsində iki ölkə arasında 20-dək, indiyədək ümumilikdə isə 135 sənəd imzalanıb. Bunlar Azərbaycanla Özbəkistan arasında strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldir.İmzalanmış sənədlər nəyi nəzərdə tutur? Bunlar birbaşa prezidentlər arasında əlaqələrdən tutmuş xarici siyasət sahəsində əməkdaşlıq, hərbi və hərbi-texniki sahədə əlaqələrin gücləndirilməsi, nəqliyyat-logistika sahəsində birgə layihələrin icrası - bu, Özbəkistanın Azərbaycan ərazisindən küçməklə Avropa bazarlarına, Azərbaycanın isə Özbəkistan torpaqlarından keçməklə Çin və Uzaq Şərq ölkələri bazarlarına tranzit çıxışı əldə etməsi deməkdir, sənaye sahəsində əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı investisiyaların təşviqini və sair nəzərdə tutur. Bir məsələni də unutmaq olmaz ki, Özbəkistanın Azərbaycanla Ermənistan arasında uzun illərdir davam edən münaqişədə birmənalı şəkildə Azərbaycanı dəstəkləyib, Ermənistana hər zaman soyuq münasibət bəsləyib və bunun bariz nəticəsidir ki, prezident Şavkat Mirziyoyev Qələbə münasibətilə Azərbaycan xalqını şəxsən təbrik edib.

**Özbəkistanın münaqişə dövründə qeydşərtsiz Azərbaycanı müdafiə etməsinin nümunəsi olaraq prezident Mirziyoyevin dediklərini xatırlatmaq kifayətdir:** "Bütün bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb. Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha təbrik edirəm"...

Torpaqlarımız işğaldan azad edildikdən sonra da Özbəkistanın Azərbaycana birbaşa dəstəyi davam etməkdədir. Buna misal olaraq Füzulidə Özbəkistanın dövlət büdcəsinin maliyyəsi hesabına tikiləcək məktəb binasını göstərmək olar. Xatırladaq ki, Şavkat Mirziyoyev ötən ilin noyabrında İstanbulda keçirilən

*"Türk Dünyası arasında olan birlik gün-gündən möhkəmlənir*

*Özbəkistan Azərbaycanın haqq işinə dəstək olan dövlətlərdəndir*

*Azərbaycan Prezidenti postpandemiya dövrünün ilk rəsmi səfərlərindən birini məhz Özbəkistana etdi*

*Azərbaycan tranzit ölkə kimi Özbəkistana həm maddi, həm mənəvi, strateji cəhətdən öz dəstəyini göstərə bilir*

*Ölkə Prezidentinin Özbəkistana səfərinin bizim üçün iqtisadi-siyasi əhəmiyyəti böyükdür*

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük bir məktəb binasının tikiləcəyini bildirib. Üç hektar ərazidə 960 yerlik məktəb binasının tikintisi üçün ərazi artıq müəyyənləşdirilib və ilkin işlərə başlanılıb. Bu, Azərbaycanla Özbəkistan arasında dostluğun və qardaşlığın rəmzidir.

**Məktəb binasından söz düşmüşkən, qardaş xalqlarımız arasında mədəni əlaqələrin tarixi qədim zamanlara uzanır və indiki müasir əlaqələr də həmin özül üzərində şaxələndirilərək inkişaf etdirilir.** Günümüzdə Azərbaycanda Özbəkistanı, Özbəkistanda isə Azərbaycanı tanıtdıran bir çox tarixi-mədəni şəxsiyyətlərimiz var. Məsələn, Daşkənd və Bakı şəhərlərində dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin açılması, Azərbaycan paytaxtında küçələrdən birinə dünya şöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi xalqlarımız arasında qarşılıqlı marağın, tarixən mövcud olan qarşılıqlı hörmətin parlaq nümunəsidir.

Sovet İttifaqı dönəmində hər iki xalq arasında mədəni əlaqələr daha da inkişaf etmişdi. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da yaxından iştirak ediblər. Bu gün 68 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir.

**1989-cu ilin iyununda baş vermiş Fərqanə hadisələri SSRİ rəhbərliyinin,ələxüsus da Mixail Qorbaçovun türk xalqlarına qarşı düşmənçiliyinin bariz nümunəsidir. Hadisələrin əsas səbəbkarı və təşkilaçısı kimi müxtəlif mənbələr tərəfindən SSRİ Dövlət Təhlükəsizlik Komitəsi göstərilib. 20 Yanvar və Sumqayıt hadisələrində də eyni dəsti-xətti görmək mümkündür.**

Bu arada, ermənuilər yalnız Azərbayca xalqına qarşı terror əsdirməyib, onlar 100 il öncə özbəklər arasında da böyük qırğınlar törədiblər. Belə ki, 1918-ci ilin fevral ayında bolşeviklərin dəstəyi ilə "Daşnaksutun" partiyasının hərbi qanadı tərəfindən Kokand vilayətində özbəklərə qarşı soyqırım törədilib. Cəmi üç gün ərzində Kokand şəhərində 10 minə yaxın dinc sakin qətlə yetirilib. Ümumilikdə həmin hadisələr zamanı 35 minə yaxın özbək öldürülüb. Bu barədə məlumat dərc olunmuş «Ulu? Turkiston» qəzetində yazılırdı ki, Kokand qırğınlarında ermənilər xüsusilə fərqlənirdi...

Qeyd edək ki, hazırda çox sayda erməni icmasının yaşamasına baxmayaraq, Özbəkistanda Ermənistan səfirliyi və Ermənistanda Özbəkistan səfirliyi fəaliyyət göstərmir.

**Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələr isə 2 oktyabr 1995-ci ildə yaradılıb. 1996-cı ilin ortalarında Azərbaycanın Özbəkistanda, 1998-ci ilin may ayında isə Özbəkistanın Azərbaycanda səfirlikləri fəaliyyətə başlayıb.**

Müstəqil Azərbaycanla Özbəkistan arasında əlaqələrin güclənməsi hər zaman dövlət rəhbərlərinin diqqətində olub. Müstəqilliyin ilk ill\ərindən ölkələrimiz arasında həyata keçirilən rəsmi səfərlər də məhz bu marağa xidmət edib. Məsələn, Özbəkistan prezidenti İslam Kərimovun 26-27 may 1996-cı ildə Azərbaycana ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər ərzində iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənəd paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. Elə həmin ilin 21-22 oktyabr tarixində Azərbaycan prezidenti Heydər Əliyev Türkdilli Dövlətlər Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub. 18-19 iyun 1997-ci il tarixdə prezident Heydər Əliyevin Özbəkistana rəsmi səfəri münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin vaxt 19 sənəd imzalanıb. Sözügedən sənədlərin imzalanması mərasimində çıxış edən prezident Heydər Əliyev qeyd edirdi: "Biz Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər yaransın və inkişaf edib, möhkəmlənsin".

**Daha sonra - 23-24 mart 2004-cü il tarixində prezident İlham Əliyev Özbəkistanda rəsmi səfərdə olub. Səfər zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Sözügedən sənəddə bildirilir ki, tərəflər siyasi əlaqələri və qarşılıqlı fəaliyyəti daha da inkişaf etdirəcək, strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirəcəklər.** Habelə, öz ərazilərində təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş fəaliyyətinin qadağan edilməsi və aradan qaldırılması üzrə tədbirlər görəcəklər. 2004-cü ildə imzalanmış bəyannamədə habelə ticarət-iqtisadi, elmi-texniki, humanitar sahədə əməkdaşlıq məsələləri də öz əksini tapıb.

Yeri gəlmişkən, Azərbaycan və Özbəkistan prezidentlərinin 2010-cu il sentyabrın 27-də Daşkənddə imzalanmış Birgə Bəyannaməsində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun olaraq, öncə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə həllinin zərurəti öz əksini tapıb. İkitərəfli münasibətlərin müxtəlif spektirlərini əhatə edən sözügedən bəyannamədə prezidentlər Azərbaycan - Özbəkistan münasibətlərinin yüksək səviyyədə olduğunu, xalqlarımızıın köklü maraqlarına cavab verən dostluq və strateji tərəfdaşlıq ruhuna tam həcmdə uyğun gəldiyini xüsusilə vurğulayıblar.

Onu da xatırladaq ki, Özbəkistan BMT Baş Assambleyasında 14 mart 2008-ci ildə səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnaməyə lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub.

Ümumiyyətlə, Özbəkistan keçmiş münaqişədə hər zaman ölkəmizin ədalətli mövqeyini dəstəkləyib. Sonda qeyd edək ki, bütövlükdə Azərbaycanla Mərkəzi Asiyanın türk dövlətləri arasında son vaxtlar əlaqələrin səviyyəsi sürətlə yüksəlməkdədir. Məsələn, Qırğızıstan prezidentinin aprel ayında Azərbaycana baş tutmuş səfəri zamanı "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyənnamə" imzalanmışdı. Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevin də yaxın vaxtlarda Azərbaycana səfəri nəzərdə tutulur və hər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Türkmənistan və Tacikistanla da son vaxtlar mütəmadi yazışmalar həyata keçirilir. Hətta Azərbaycan Prezidenti Türkmənistanın yeni seçilmiş Prezidentini Azərbaycana səfərə dəvət edib.

***Vüsal Tağıbəyli***

### Fəzail İbrahimli, vitse-spiker:



- Prezidentin Özbəkistanda yüksək qarşılanması, göstərilən isti münasibət, əldə olunan nəticələr belə fikir söyləməyə əsas verir ki, Türk Dünyası arasında olan birlik gün-gündən möhkəmlənir. Bu sırada müxtəlif yerlərdə dayananlar var. Özbəkistan bu münasibətlər müstəvisində 1-ci yerlərdə dayananlardandır. Bu görüş Azərbaycan xalqı üçün də özbək xalqı üçün də xoş oldu". Türkiyə ilə münasibətlərimizin yüksələn inkişafı Türk Dünyasının bizə olan marağını artırıb. Azərbaycanın yaxın tarixinə qısa nəzər salsaq, son illərdə nüfuzunun beynəlxalq münasibətlər sistemində çox yüksək olduğunu görərik. Azərbaycan bütün dünyada qəbul olunur. Bunun bir neçə səbəbi var. Birincisi, Azərbaycanın iqtisadi, siyasi sahədə əldə etdiyi uğurlar dünyaya bir nümunədir. Azərbaycan özünün sabitliyi ilə bir məktəbdir. 44 günlük Vətən müharibəsi isə dövlətin nüfuzunu artırdı və haqqın-ədalətin uğrunda axıra qədər getməyin vacibliyi göründü. Dövlətlərin Azərbaycana münasibəti özlərindən asılı olmayaraq bizə layiq olur. Bunların içərisində kökümüz, qanımız bir olan Türk Dünyasının özünəməxsusluğu var.

### Vüqar Bayramov, millət vəkili:



- Özbəkistan Azərbaycanın haqq işinə dəstək olan dövlətlərdəndir. Xüsusən də son illər iki ölkə arasında münasibətlərin daha da dərinləşməsi müşahidə olunur. İqtisadi əlaqələrə gəldikdə isə, ötən il iki ölkə arasında ticarət dövriyyəsi 111 milyon 903 min dollar olub. Bu 2020-ci ilə nisbətən 16 faiz artım deməkdir. Pandemiya ilində ölkələr 82 milyon 318 min dollarlıq dövriyyəyə malik olublar. Bununla belə, Azərbaycan və Özbəkistan pandemiya dövründə öz aralarındakı ticari dövriyyələrini qoruyub saxlaya və hətta artıra biliblər. Belə ki, 2019-cu ildə dövriyyə 81 milyon 962 min dollar idi.

2011-ci ildə Azərbaycan Özbəkistandan 78 milyon 431 min dollarlıq mal idxal edib. Bu əvvəlki ilə nisbətən 32.5 faiz artım deməkdir. Mərkəz Asiya dövlətinə isə ötən il 33 milyon 490 min dollarlıq mal ixrac etmişik və burada da 44.9 faiz artım qeydə alınıb. Xarici ticari əlaqələrin struktruna gəldikdə isə, Azərbaycan Özbəkistandan ötən il 4 milyon 862 min dollarlıq televiziya qəbulediciləri, 2 milyon 628 min dollarlıq məişət kondisionerləri alıb.

Bununla bərabər təzə meyvə (829 min dollar), paltaryuyan maşınları (538.7 min dollar), kağız və kartondan sanitar-gigiyenik məmulatlar (504.9 min dollar), ayaqqabı (131.9 min dollar), təzə tərəvəz (51.1 min dollar) də idxal məhsulları arasındadır. İxracatımıza gəldikdə isə ötən il 7 milyon 51 min dollarlıq şəkər məhsulları Özbəkistana göndərilib. Pandemiyadan öncə 4 milyon 864 min dolallıq etilen polimerləri, 621.9 min dollarlıq sürtkü yağları da dost ölkəyə ixrac olunub. Gözlənilir ki, son dövlət səfəri münasibətlərin daha da dinamik inkişaf etməsinə zəmin yaradacaq və tərəflər qarşılıqlı olaraq mövcud potensialdan daha sıx faydalanacaqlar.

### Hikmət Babaoğlu, Milli Məclisin deputatı:



- Azərbaycan Prezidenti İlham Əliyevin dost və qardaş Özbəkistana səfəri iki ölkə arasında münasibətlərin inkişafına yeni təkan vermiş oldu. Səfər zamanı iyirmiyə qədər mühüm sənəd imzalandı ki, bunların hər biri ayrılıqda olduqca əhəmiyyətlidir. Çünki məzmun etibarilə bu sənədlər iki ölkə arasında münasibətlərin böyük bir spektrını kompleks şəkildə əhatə edir. Buraya iqtisadi, mədəni sahədən başlamış hərbi texniki əməkdaşlığa qədər geniş blok daxildir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Prezidenti postpandemiya dövrünün ilk rəsmi səfərlərindən birini məhz Özbəkistana etdi. Çünki hazırkı mürəkkəb geostrateji şərtlər milli dövlətlər üçün proqnozlaşdırılması mümkün olmayan təhdidlər yaradır. Belə təhdidləri yalnız etibarlı müttəfiq və tərəfdaşlarla birlikdə dəf etmək mümkündür. Bu təhdidlər, sadəcə, hərbi siyasi məzmunlu deyil, həm də iqtisadi, tibbi-sağlamlıq, informativ və s. olmaqla çoxşaxəlidir. Bütün bunlar milli maraqların qorunması üçün fəal əməkdaşlığı zəruri edir. Özbəkistanda başda Prezident Şavkat Mirziyoyev olmaqla siyasi elita və bütövlükdə özbək xalqı Azərbaycan Prezidenti İlham Əliyevi böyük təntənə və ehtişamla qarşıladı. Yəni Özbəkistan Azərbaycan Prezidentini qalib Sərkərdə kimi qarşıladı. Yalnız qardaş xalq qardaşının tarixi Zəfərinə belə sevinə bilər. Prezident Şavkat Mirziyoyev bildirdi ki, "mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi". Belə səmimi və sevgi dolu cümləni qurmaq üçün yalnız qardaş olmaq lazımdır ki, Özbəkistan-Azərbaycan qardaşlığı da ölkənin liderinin dilindən məhz bu cür səsləndirilir.

Onun sözlərinə görə, ancaq belə mənəvi-humanitar məsələlərlə yanaşı iki ölkənin qarşılıqlı iqtisadi, hərbi-texniki və siyasi əməkdaşlığı o qədər böyük potensiala və perspektivə malikdir ki, bu potensialın realizə olunması regionun iqtisadi və kommunikativ mənzərəsini tamamilə dəyişə bilər. Bunun üçün Azərbaycanın yaratdığı logistika və kommunikasiya layihələri Özbəkistan üçün Qərbə çıxış qapısı rolunu oynaya bilər. Özbəkistan işğaldan azad edilmiş Füzuli rayonunda məktəb inşa etməyi planlaşdırır. Bu, bir qardaş töhfəsidir və məhz məktəbin tikilməsi ayrıca məzmun daşıyır. Bu səfər və imzalanan sənədlər ən qısa zamanda iki qardaş və dost ölkə arasında strateji müttəfiqlik şərtləri yaradacaq qədər əhəmiyyətlidir.

### Eldəniz Əmirov, iqtisadçı-ekspert:



- Özbəkistan Azərbaycanla sərhəddə yerləşməsə də, Xəzərin şərq sahilində 120-150 kilometrlik məsafədə olan bir ölkədir ki, potensialı da kifayət qədər genişdir. Təsəvvur edin ki, 2021-ci ildə bu ölkənin ticarət dövriyyəsi 42 milyard dollar olub. Azərbaycanın ticarət dövriyyəsi 35,5 milyard dollar təşkil edib. Ümumilikdə, ticarət dövriyyələri cəmi, təxminən, 77 milyard dollardan daha yuxarı olub. Bunun qarşılığında iki ölkə arasında olan ticari dövriyyənin həcminə baxsaq, 2021-ci ildə bu həcm, təxminən, 112 milyon dollar olub. Bu isə Azərbaycanın ticarət dövriyyəsində cəmi 0,3 faizi əhatə edir. Azərbaycan Özbəkistandan hər il, təxminən, 5 milyon dollarlıq müxtəlif cihazlar, eyni zamanda, 700 min dollarlıq məişət avadanlıqları alır. Əvəzində isə Azərbaycan tərəfindən Özbəkistana digər məhsullar ixrac olunur. İdxal etdiyimiz məhsullar arasında həm kənd təsərrüfatı, həm də sənaye məhsulları var. İxracatımızda şəkər məhsulları, neft-kimya məhsullarından alınan etilen polimerləri, sürtgü yağları daha çox üstünlük təşkil edir.

Bütün bunlar çeşid baxımından çox olsa da, dəyər baxımından aşağıdır. Yəni, ümumi dövriyyədə kiçik bir payı, qeyd etdiyim kimi, cəmi 0,3 faizi əhatə edir. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbəri Orxan Məmmədovun və onların ardından isə ölkə rəhbərinin, cənab Prezidentin Özbəkistana ən yüksək səviyyədə səfər etməsi, orada görüşlər keçirməsi məhz iki ölkə arasında mövcud iqtisadi potensialın daha yüksək səviyyələrə qaldırılmasını özündə ehtiva edir. Nəzərə alsaq ki, Zəngəzur dəhlizi, artıq reallaşmaq üzrədir. Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. Eyni zamanda, Ələt Azad İqtisadi Zonası fəaliyyətə başlayır. Bu potensial istər Avropanın Orta Asiyaya çıxışında, istərsə də Orta Asiyanın Azərbaycan üzərindən Avropaya çıxışına əlavə imkanlar yaradır. Və Azərbaycan da tranzit ölkə kimi Özbəkistana həm maddi, həm mənəvi, strateji cəhətdən öz dəstəyini göstərə bilir. Təbii olaraq burada da, Azərbaycanın öz qazancları vardır. Bu xeyir həm maddi dəyər, həm də strateji nüfuz baxımından qazanclı bir situasiyadır.

### Mətin Məmmədli. politoloq:



- Ölkə Prezidentinin Özbəkistana səfərinin bizim üçün iqtisadi-siyasi əhəmiyyəti böyükdür. Özbəkistanın Mərkəzi Asiyanın iki aparıcı ölkəsindən biridir. Çox böyük iqtisadi potensialı olan bir dövlətlə ölkəmizin münasibətlərinin inkişaf etdirilməsi mühüm əhəmiyyətə malik mərhələ kimi dəyərləndirilməlidir. Onu da nəzərə almaq lazımdır ki, Özbəkistanın hazırkı prezidenti hakimiyyətə gəldikdən sonra iki ölkə arasındakı münasibətlər yeni mərhələyə daxil olub, daha da inkişaf edib. O da təqdirəlayiq haldır ki, Özbəkistan Azərbaycan ərazilərinin bütövlüyünü birmənalı olaraq müdafiə edib. Özbəkistanla əlaqələrə həm də bu kontekstdən yanaşmalıyıq. Bütövlükdə bu səfər Azərbaycan-Özbəkistan əlaqələrinin daha da inkişaf etməsinə töhfə verəcək, eyni zamanda ölkəmizin Mərkəzi Asiyada mövqelərinin daha da güclənməsinə xidmət edəcək. Bu səfər müddətində iki ölkə münasibətlərinin bir çox sahələrini əhatə edən sazişlər imzalanıb. Xüsusilə də hərbi-texniki sahədə əməkdaşlıq sazişi və iqtisadi sferaya dair sənədlər imzalanıb. Bu da iki ölkənin qarşılıqlı olaraq əməkdaşlığa nə qədər dəyər veridyini sübut edir. Əsas saziş iki ölkə arasındakı strateji tərəfdaşlığın rəsmiləşdirilməsi ilə bağlı imzalanmış sənəddir və hesab edirəm, bu sənəddə iki ölkə münasibətlərinin yeni səviyyəyə qaldırılmasını özündə ehtiva edir.

# Azad sahibkarlıq və əlverişli biznes mühiti

## Layihə

***Bu gün Azərbaycan biznes mühitinin əlverişliliyi, rəqabət qabiliyyətin yüksəldilməsi, sahibkarların daha rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biri sayılır. Təbii ki, bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması üçün sahibkarlar sinfinin rolu xüsusi əhəmiyyətə malikdir. Bu reallığı nəzərə alan Prezident İlham Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin gücləndirilməsinə çalışır. Qeyd edək ki, sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmiz mütəmadi olaraq beynəlxalq təşkilatların da diqqət mərkəzindədir.***



Demək olar ki, hər il beynəlxalq maliyyə institutlarının hesabatlarında Azərbaycanın mövqeyi daha da yaxşılaşır. Məsələn, ötən ildə də nüfuzlu beynəlxalq qurumlarının reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer alıb. Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra göstəricilər üzrə öndə olub. Bundan əlavə, Heritic Fondunun 2021-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə 178 ölkə arasında Azərbaycan 38-ci pilləyə yüksəlib. Sözsüz ki, bu uğurların təməlində ölkə başçısının yürütdüyü düzgün iqtisadi siyasət, gərgin əmək dayanır.

### Ötən il 1902 investisiya layihəsi maliyyələşdirilib

**Ölkəmizdə postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb.**

Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülüb. Eyni zamanda, sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi işləri də davam edir. Məsələn, İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2021-ci il ərzində ümumi dəyəri 288 milyon manat olan 1902 investisiya layihəsinin maliyyələşdirilməsinə 131 milyon manat güzəştli kredit verilib ki, onun da 59 faizi kənd təsərrüfatı məhsulları istehsalçılarının payına düşüb. Bu kreditlər hesabına 3200-dən çox yeni iş yerinin açılması imkanı yaranıb. Ümumilikdə son 18 ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 38 min sahibkara 3 milyard manat güzəştli kredit verilib ki, nəticədə bu dövrdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 7 dəfəyə yaxın artıb.

Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması

> *Bizdə Rəqabət Məcəlləsi qəbul edilməsə də, bu sahəni tənzimləyən qanunlar var*

tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirib. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır. Təsadüfi deyil ki, həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2021-ci ildə də ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadi artım prosesləri sürətlənmiş və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olmuşdur. Fərdi sahibkarlar tərəfindən isə 2021-ci ildə 54,5 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

### Son 19 ildə ümumi daxili məhsul istehsalı 8,3 dəfə artıb

**Onu da qeyd etmək yerinə düşər ki, biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində son 19 ildə əhalinin nominal gəlirləri də əhəmiyyətli dəcədə artıb.**

Belə ki, bu müddət ərzində əhalinin nominal gəlirləri 10 dəfə artıb, yaşayış minimumu 2003-cü illə müqayisədə 5 dəfə artaraq 200 manat olub, ümumi daxili məhsul istehsalı 8,3 dəfə artaraq adambaşına 7,3 min



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

manat təşkil edib. Həmin dövrdə qeyri neft-qaz iqtisadiyyatının həcmi 3 dəfə artaraq 51 milyard manata çatıb, qeyri neft-qaz məhsullarının ixracı 5 dəfə artıb. Bu dövrdə valyuta ehtiyatları 33 dəfə artaraq 51,2 milyard manata çatıb, Azərbaycanla xarici ticarət əlaqələri quran ölkələrin sayı 124-dən 183-ə yüksəlib. Bundan əlavə, 2004-2021-ci illərdə ölkə iqtisadiyyatına yönəlmiş investisiyaların həcmi 3,1 dəfə artıb, bank sektoru tərəfindən iqtisadiyyata yönəlmiş kreditlərin həcmi 24 dəfə artaraq 14,2 milyard manata çatıb. Bu dövrdə ölkədə 2.5 milyon yeni iş yerləri yaradılıb, işsizlik səviyyəsi 4,8 faizə enib, ölkə əhalisinin məşğulluğu sahəsində əsaslı dönüş yaranıb.

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Prezidentin sərəncamının icrası olaraq artıq ölkəmiz yeni strateji mərhələyə daxil olub. Həyata keçirilən islahatlar nəticəsində sahibkarlıq sahəsində yoxlamalar 2023-cü ilədək dayandırılıb, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilib, lisenziyanın verilməsinə görə dövlət rüsumları Bakıda 2, regionlar üzrə 4 dəfə azaldılıb. Əsas hədəflərdən biri də ölkədə azad sahibkarlığı inkişaf etdirmək və KOB subyektlərinin makroiqtisadi göstəricilərindəki payını artırmaqdır. "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

əsasən, bu müddət ərzində kiçik və orta biznes subyektlərinin qeyri-neft və qaz sektoru üzrə ümumdaxili məhsulda payını 35 faizə çatdırmalıdır. Həmçinin qeyri-neft sektoru üzrə məşğulluqda KOB subyektlərinin payının 60 faizə çatdırılması da strateji hədəf seçilib. Çünki ölkədə azad sahibkarlıq və liberal iqtisadiyyatın bütün ölkə iqtisadiyyatındakı rolunun möhkəmləndirilməsi və rəqabətliliyin artırılması vacibdir.

### Sahibkarlığın inkişafı üçün yeni imkanlar yaranıb

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Xalid Kərimli hesab edir ki, Azərbaycanda iqtisadiyyatın dayanıqlılığını təmin etmək məqsədilə müəyyən islahatlar aparılıb, azad sahibkarlığın və investitsiya mühitinin yaxşılaşdırılması istiqamətində addımlar atılıb:** "İqtisadiyyatın inkişaf etdirilməsi üçün müəyyən addımlar atılıb. Belə ki, gömrük işinin təşkilinin sadələşdirilməsi, vergi sahəsində islahatlar, azad sənaye texnoloji parklarının istifadəyə verilməsi, həmçinin azad iqtisadi zonanın yaradılması, nəliyyat logistika infrastruktrunun inkişaf etdirilməsi və güzəştli kreditləşmə istiqamətində atılan addımları qeyd etmək olar. Eyni zamanda, bizdə Rəqabət Məcəlləsi qəbul edilməsə də, bu sahəni tənzimləyən qanunlar var. Belə ki, "Haqsız rəqabət haqqında" qanun, "Təbii inhisarlar haqqında" qanun, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun və "Antiinhisar fəaliyyəti haqqında" qanun var. Yəni rəqabət sahəsində qanunvericilik qeyri-təkmil formada var. Ancaq mövcud qanunların da tətbiqi edilməməsi praktikası mövcuddur".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən millət vəkili Vüqar Bayramovun sözlərinə görə, bütövlükdə son illər sahibkarların dəstəklənməsi prioritet məsələrdəndir: "Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərimizdə formalaşıcı iqtisadiyyatdan yerli sahibkarların daha yaxından dəstəklənməsi də əsas istiqamətlərdəndir.** Nəzərə alsaq ki, işğaldan azad olunmuş ərazilərimizin illik olaraq təxminən 5 milyard manata yaxın dəyər yaratmaq potensialı var. Bu, Azərbaycan iqtisadiyyatının təxminən 10 faizinə yaxını deməkdir. Ona görə də böyük potensial var və həmin potensialın reallaşması da birbaşa sahibkarların həmin ərazilərimizdə iqtisadiyyatın qurulmasında iştirakından asılıdır. O baxımdan həm bütövlükdə ölkədə həyata keçirilən sahibkarların inkişafı ilə bağlı siyasət, o cümlədən vergi güzəştinin tədqiq edilməsi, sahibkarların maliyyə resurslarından çıxış imkanının artırılması, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə bu prosesin daha intensiv şəkildə həyata keçirilməsini sahibkarlığın inkişafı üçün yeni imkanlar yaradır".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə Komissiyanın ikinci iclası tezliklə Moskvada keçiriləcək". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova deyib. Onun sözlərinə görə, Rusiya tez bir zamanda sözügedən Komissiyanın ikinci iclasına ev sahibliyi etməyə hazırdır.

■ Rusiyanın Vladimir vilayətində silah-sursat anbarında mərmi partlayıb. Hadisə Barsovo qəsəbəsində yerləşən hərbi hissədə qeydə alınıb. Partlayış nəticəsində 4 nəfər həlak olub, daha 1 nəfər isə xəsarət alıb. Ölənlərdən 3-ü hərbi qulluqçu, 1-i isə anbar işçisidir.

■ Bakıdakı cəzaçəkmə müəssisələrinin birində ölüm hadisəsi baş verib. Penitensiar Xidmətin Nərimanov rayonu ərazisində yerləşən 10 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan məhbus, 2000-ci il təvəllüdlü İmran Nəriman oğlu Nağıyev qəfil vəfat edib. İlkin müayinələrdən sonra 22 yaşlı məhkumun infarktdan öldüyü müəyyən edilib. Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda araşdırma aparılır.



■ Bu ilin yanvar-may aylarında Azərbaycana idxal olunan yeyinti məhsullarının dəyəri 875 067,1 min ABŞ dollarına bərabər olub. Yeyinti məhsulları üzrə idxalın dəyəri bir il öncəki göstəriciyə nisbətən 16% artıb. Ümumilikdə, cari ilin ilk beş ayında qida məhsullarının ümumi ölkə idxalında çəkisi 17,04% təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 0,15 faiz bəndi azdır.

■ Bu ilin yanvar-may aylarında Azərbaycanda əhalinin banklardakı əmanətləri 10,593 milyard manata çatıb. Bu rəqəm, 2022-ci ilin dörd ayı ilə müqayisədə 0,7%, ötən ilin eyni dövrünə nisbətən isə 22,6% çoxdur. Qeyd edək ki, 2021-ci ilin eyni dövründa əhalinin banklardakı depozitlərinin həcmi 8,635 milyard manat təşkil edib.

■ 2022-ci ilin ilk beş ayında Azərbaycanın bank sektorunun xalis mənfəəti 21,3% artaraq 331,5 milyon manata bərabər olub. Bu dövrdə bankların əməliyyat gəlirləri 1,459 milyard manat, əməliyyat xərcləri 937,1 milyon manat, xüsusi ehtiyatlara ayırmaları 117,9 milyon manat, gözlənilməz xərcləri 0,1 milyon manat, mənfəət vergisi ödəmələri isə 73,1 milyon manat təşkil edib.

# 104 yaşlı Azərbaycan Ordusu

◂ əvvəli 1-ci səhifədə

**Mehman Səlimov, polkovnik:**

...1991-ci ilin payızında, artıq Milli Ordumuzun yaradılması haqda qərar verildikdən sonra, yəqin ki, siz də bu işdə fəal iştirak etdiniz?

- Bəli, təbii ki. Əlimdən gələni etdim... 1991-ci il yayında - artıq ovaxtkı prezident Ayaz Mütəllibov Milli Ordu yaradılması haqda qeyri-rəsmi qərar verəndən sonra Ali Sovetin sədri rəhmətlik Elmira Qafarova köməkçisi Cahangir Nəcəfovla birgə diviziyaya gəldi, komandirlə görüşdülər. Onlarla xeyli söhbət etdik. Bir müddət sonra Cahangir müəllim məni görüşə çağırdı və dedi ki, Elmira xanım xahiş edir ki, Milli Ordunun yaranması haqqında qanunun hazırlanmasında bizə kömək etsin. Məmnuniyyətlə razılşadım.

1991-ci ilin avqustunda məzuniyyətə çıxdım və parlament binasının 11-ci mərtəbəsində mənə verilmiş otaqda işləməyə başladım. O zaman Ali Sovetdə hüquq şöbəsinin müdiri işləyən Şahin Əliyevin rəhbərliyi ilə İlqar Qurbanov, Niyazi Səfərov adlı əməkdaşlar da mənə kömək edirdilər. Sonradan ilk Müdafiə nazirimiz general Valeh Bərşadlı Şikar Şikarovu da mənə dəstək vermək üçün göndərdi... Bildiyiniz kimi, Şikar Şikarov 1992-ci ilin iyununda şəhid oldu və Milli Qəhrəman adına layiq görüldü.

Xülasə, qanunu hazırladıq. İndi, bunu parlamentdə təqdim etmək lazım idi. Hələ sovet diviziyasında işləyirdim və belə işlərimə görə məni işdən qova bilərdilər. Ancaq risk etmək qərarına gəldim. Və oktyabrın 9-da özüm Silahlı Qüvvələr haqqında ilk qanunu Ali Sovetdə müzakirəyə çıxardım və nəhayət, həmin qanun qəbul olundu. Qanunun müzakirəsi zamanı maraqlı bir məqam oldu. General Timoşenko deputat idi. Birdən ayağa qalxdı ki, "Siz nə ordu yaradacaqsınız, siz nə bilirsiniz ki, ordu nədir? Sadəcə, bir misal gətirəcəyəm. Silahlı Qüvvələr haqqında Qanun qəbul edirsiniz, amma bilmirsiniz ki, həmin qanundan

> *Milli Ordu haqqında ilk Qanunu Şikar Şikarovla birgə hazırladıq*

öncə Hərbi And qəbul olunmalıdır"... Gördüm ki, bunu eşidən kimi Elmira xanım bir az pərt oldu. Dedim ki, Elmira xanım, Timoşenkonun iradı düzdür, Hərbi Andımız da hazırdır, lakin kabinetdə qalıb, fasilədən sonra deputatlara çatdırarıq. Cəmi 40-45 dəqiqəlik fasilə ərzində yenə də adını çəkdiyim hüquqşünaslarla birgə Hərbi Andı tərcümə edib Azərbaycan Dövlətinə və ordusuna uyğun şəkildə hazırladıq və dərhal çoxaldıb zaldakı bütün deputatların masalarına qoyduq. Beləliklə, Silahlı Qüvvələr haqqında Qanun qəbul edildi və Milli Ordumuzun təməli rəsmən qoyulmağa başlandı. Bundan sonra diviziyada komandanlıq məni separatçılıqda ittiham etdi və barəmdə cinayət işi qaldırıldı. Artıq məni sovet zabiti kimi hərbi trubunala verməyə hazırlaşırdılar. Bundan xəbər tutan rəhmətlik Elmira Qafarova diviziyaya gəldi və komandir Antonovla söhbət edib mənim həbs olunmağımın qarşısını aldı...

**Gəray Əsədov, mayor:**

...Yadımdadır ki, o dövrdə ilk taborlar 1991-ci il oktyabrın ik günlərində Ağdamda rəhmətlik Şirin Mirzəyevin, Laçında Arif Paşanın rəhbərliyi ilə yaradılmış taborlar idi. Təsəvvür edin, 1992-ci ilin yanvarında mən işlə bağlı Laçında taborun ərazisində olanda Azərbaycanda nizam-intizamlı, demək olar ki, tam komplektləşdirilmiş hərbi hissə görəndə heyrətə gəldim.

...İlk briqada isə 1991-ci il oktyabrın 9-da Bakıda Şıxov qəsəbəsində polkovnik Zadir Rzayevin rəhbərliyi ilə yaradılmış 701 saylı briqada oldu. Həmin vaxt Müdafiə Nazirliyinin, demək olar ki, adı var idi, özü yox idi. İki-üç nəfər də general vardı, onlardan biri Valeh Bərşadlı, digəri isə Tacəddin Mehdiyev idi...

Nəhayət, 1992-ci ilin martında 703 saylı briqada yaradıldı. Hərbi hissələr yarananda onun ştatına uyğun həm şəxsi heyət, həm də silah-sursat və texnika olmalıydı. Təsəvvür edin, 708 saylı briqada tank briqadasıydı, amma həmin hərbi hissədə cəmi bir neçə tank vardı. 130 saylı hərbi hissə desant-hücum briqadası sayılırdı, amma orada desantdan əsər-əlamət yox idi...

Eyni zamanda hərbi hissələrdə kəskin kadr çatışmazlığı vardı. Aşağı və yuxarı səviyyədə müəyyən saylarda zabit olsa da, orta səviyyədəki zabitlər daha az idi. Bir sözlə, Azərbaycan Silahlı Qüvvələri belə bir pərakəndə vəziyyətdə formalaşmağa başlasa da, torpaqlarımız işğal edilsə də, Qaradağlı, Xocalı, Ağdaban və s. kimi faciələr baş versə də, uğurlu əməliyyatlarımız da oldu. Bu da əsasən döyüşən oğullarımızın vətənpərvərliyi, qeyrəti, iradəsi, dəyanəti sayəsində

> *Azərbaycan Ordusu həm şəxsi heyət, həm müasir texnika və arsenalı ilə özünü nümayiş etdirərək bütün dünyaya çağdaş müharibənin necə aparılmasını göstərdi və öz sözünü dedi*

baş verirdi. Məsələn, Tərtər-Goranboy istiqamətindəki bütün könüllü taborlar 703 saylı briqada birləşdirildi və həmin briqada 1992-ci ilin iyul-sentyabr aylarında Ağdərə istiqamətində torpaqlarımızın xeyli hissəsini azad etdi və Xankəndinin yaxınlığınadək gedib çıxdı.

Zadir Rzayevin komandanlığıyla formalaşan 701 saylı briqada 1992-ci ilin iyul- oktyabr aylarında Kəlbəcər-Laçın istiqamətində hücuma keçərək Laçının 46 kəndini azad edərək Laçın dəhlizinədək gedib çıxdı. 1993-cü ilin dekabr -1994-cü ilin yanvar aylarında Horadiz istiqamətində torpaqlarımızın bir hissəsinin azad edilməsi ilə nəticələnən əməliyyat baş verdi. Eləcə də təxminən, eyni dövrdə qış aylarına və yüksək dağlıq şəraitə rəğmən ilk vaxtlar uğurla davam edən və sonradan uğursuzluğa düçar olan mənim də tabor komandiri kimi qatıldığım Murovdağ əməliyyatını da misal göstərmək olar...

Qeyd edilən dövrlərdəki uğursuzluqlarımızın əsas səbəblərindən biri silah-sursat, texnilka kadr çatışmazlığıydısa, digər səbəbi isə tam vahid komandanlığın olmaması və hakimiyyət uğrunda aparılan müxtəlif siyasi oyunlar oldu...

Bu minvalla 1994-cü ilin mayına, yəni atəşkəs dövrünədək gəlib çıxan Silahlı Qüvvələr sonrakı illərdə sabitliyin yaranması və iqtisadiyyatın güclənməsi sayəsində bütün çətinliklərə və düşmən təxribatlarına rəğmən tədricən gücləndi, möhkəmləndi və bütün bu işlər öz uğurlu nəticələrini əvvəl kiçik miqyasda 2016-cı ilin aprel döyüşlərində, sonra isə geniş miqyasda 2020-ci ilin payızındakı 44 günlük II Qarabağ savaşında göstərdi. Nəticədə, Azərbaycan Ordusu həm şəxsi heyət, həm müasir texnika və arsenalı ilə özünü nümayiş etdirərək bütün dünyaya çağdaş müharibənin necə aparılmasını göstərdi və öz sözünü dedi. Çox şükür ki, şəhid və qazilərimizin canı-qanı sayəsində torpaqlarımızın əksəriyyəti düşməndən azad olundu. İnşallah, Qarabağdakı digər yarım qalmış işlərimiz də dövlətimizin və məhz Silahlı Qüvvələrimizin sayəsində öz həllini tapacaq. Ali Baş Komandan başda olmaqla Azərbaycan Silahlı Qüvvələrini bütün şəxsi heyətini, ilk növbədə I və II Qarabağ savaşları, Aprel döyüşlərinin qəhrəman, veteran və qazilərini və xüsusi olaraq şəhidlərimizin ailələrini, doğmalarını Milli Ordu günü münasibəti ilə təbrik edir, bütün Azərbaycan xalqına yeni uğurlar və qələbələr diləyirəm".

***✍ Sultan Laçın***

# "Türkiyə haradadırsa, biz də orada olmalıyıq"



**Sülhəddin Əkbər,**
Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri, politoloq

***İyunun 18-də Rusiya imperiyasının Azərbaycana ilk genişmiqyaslı işğalçı yürüşlərinin başlanmasının düz, 300 il tamam oldu. Həmin yürüşü Rusiyanın ilk imperatoru I Pyotr təşkil etmişdi... Ötən 300 il ərzində həmin imperiyanın Azərbaycan xalqının və torpaqlarının başına nələr gətirməsindən yetərincə danışılıb. Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri, politoloq Sülhəddin Əkbərlə hafta.az üçün növbəti söhbətimizdə məhz Putin Rusiyasının Ukraynaya təcavüzü fonunda Azərbaycanın Yuxarı Qarabağ və Şərqi Zəngəzurda qarşısında duran vəzifələrinin həlli perspektivlərindən bəhs etdik, o cümlədən qardaş Türkiyədə gözlənilən prezident və parlament seçkilərinin nəticələrinin bu proseslərə mümkün təsirlərindən danışdıq.***

***- Sülhəddin bəy, Rusiyanın torpaqlarımızın ermənilərin məskunlaşdığı hissəsini nəzarətdə saxlamasından bir il 7 ay keçən rəsmən "sülhməramlı" adlanan kontingentinin fəaliyyəti haqda gəldiyiniz yekun nəticələr nədən ibarətdir?***

- Rusiya imperiyasının və Rusiya-Azərbaycan münasibətlərinin tarixindən məlumatlı olanlar heç vaxt həmin ölkənin ordusunun sülh məramıyla gəlişini qəbul edə bilməz. Azərbaycanın orta əsrlə bağlı, yeni və ən yeni tarixi də deyilənləri təsdiqləyir. Bircə onu demək kifayətdir ki, xatırlatdığınız kimi, 1721-ci ildə bu gün Putinin özünü bənzətməyə çalışdığı I Pyotrun başçılığıyla yaranmış Rusiya imperiyasının ilk işğalçı yürüşü (1722-1723) Azərbaycana-Bakı istiqamətində olub Sonrakı mərhələlərdə torpaqlarımızın tam işğalı ilə yanaşı, ərazilərimizə ermənilərin köçürülməsi və onlar üçün qondarma dövlətin yaradılması və daha sonra həmin dövlətin ərazilərinin genişləndirilməsi faktları da bəllidir. Hazırkı Qarabağ məsələsi də süni erməni dövlətinin genişləndirilməsi prosesinin bir elementi və tərkib hissəsidir. Təəssüf ki, bu gün hələ də biz bu problemlə üz-üzəyik...

Qarabağla bağlanan bu hərbi münaqişə sünidir. Əslində bu, Rusiyanın 1991-ci ildən bəri Azərbaycana qarşı apardığı bir vəkalət müharibəsidir. Eləcə də bizim Rusiyadan - metropoliyadan öz müstəqilliyimizi elan etməyimizin bədəlidir. Burada Ermənistan Respublikası və dırnaqarası "DQR" vəkil kimi iştirak edir. Azərbaycan həmin vəkillərin başını əzən kimi Rusiya - "yerin sahibi" meydana çıxdı. Bu gün də faktiki olaraq Azərbaycanın qarşısında nə Ermənistan, nə də qondarma "DQR" var, qarşımızda neoimperialist Putin Rusiyası, onun silahlı qüvvələri dayanıb.

Nə qədər ki, Rusiya imperiyası çökməyib və yaxud Rusiya Federasiyası adlanan bugünkü dövlət imperiya siyasətindən əl çəkməyib, Azərbaycan Qarabağ problemini yaşamaqda davam edəcək... Ona görə də biz hazırda çalışmalıyıq ki, Ukrayna savaşında Rusiyanın tam məğlub olmasına mümkün olan dəstəyi verək. Bu mənada biz azad dünya ilə, qardaş Türkiyənin də NATO üzvü olaraq qatıldığı kollektiv Qərblə bir yerdə olmalıyıq. Biz nəzərə almalıyıq ki, birincisi, bu savaşda Rusiya məğlub olmayanadək o, öz imperiya siyasətindən vaz keçməyəcək. Bu halda isə Qarabağ problemini tam və qəti olaraq həll edə bilməyəcəyik. İkincisi, Rusiya-Ukrayna savaşı strateji bir savaşdır və bu savaşda resursları çox olan qalib gələcək. Kollektiv Qərbin resursları isə Rusiyanın resurslarını müqayisə etməyə dəyməz... Üçüncüsü, yeni dünya düzəni qurulur. I və II Cahan savaşlarından sonra da "soyuq müharibə"dən sonra da Yeni Dünya Düzənini qaliblər müəyyən edib. Bu gün Rusiya "soyuq müharibə"dən sonrakı yeni düzənə qarşı çıxdığına görə bu savaş başlayıb. Bilirsiniz, dünyada iki fikir var idi. Birincilər düşünürdülər ki, böyük müharibə olmadan da yeni dünya nizamını qurmaq mümkündür. İkincilər isə deyirdi ki, böyük müharibə olmayanadək bu nizamı qurmaq qeyri-mümkündür.

Rusiyanın Ukraynaya təcavüzü göstərdi ki, ikincilər haqlıymış - müharibə olmalı idi. Rusiya imperiyası, ən azı, zəifləməlidir ki, Qarabağda tam və qəti qələbə əldə edə bilək. Biz buna hazırlaşmalıyıq və hesab edirəm ki, inşAllah, belə bir şansımız da yetişəcək...

***- Rusiya Ukraynada, müvəqqəti də olsa, qalib gəlsə, Azərbaycan 44 günlük savaşda şəhid və qazilərimizin canı-qanı hesabına qazandıqlarımızı itirmək təhlükəsi ilə üz-üzə qala bilməz ki?***

- Əvvəla, inanıram ki, öncə dediyim kimi, mövcud və strateji resursları Rusiyanınkından yetərincə böyük olan kollektiv Qərb Ukraynanın bu ədalətsiz savaşda məğlub olmasına imkan verməyəcək. Yalnız ona görə yox ki, Rusiya yeni dünya düzəninə qarşı çıxır, beynəlxalq hüquqa meydan oxuyur. Həm də ona görə ki, əgər Moskva bu savaşda, dediyiniz kimi, qalib çıxacaqsa, bu Çini də Tayvana hücuma həvəsləndirəcək. Və əgər Ukrayna müharibəsi Avropa təhlükəsizlik sistemini birbaşa təhdid edirsə, Çinin Tayvanmüdaxiləsi də Hind-Pasifik zonasında təhlükəsizliyi təhdid edəcək. ABŞ-ın da qlobal liderlik iddiasını nəzərə alsaq, həm Avroatlantik, həm də Hind-Pasifik zonasında təhlükəsizliyin təhdid olunması Vaşinqton üçün yolverilməzdir. Ona görə də mən düşünmürəm ki, ABŞ, xüsusən də anqlosaksonlar, yəni Birləşmiş Ştatlarla yanaşı, Böyük Britaniya da Rusiyanın qalib gəlməsinə imkan versin. Burada yeganə incə bir amil ondan ibarətdir ki, necə edək, Rusiya çıxılmaz vəziyyətə düşərək operativ taktiki və ya taktiki nüvə başlıqlarından istifadə etməsin? Hazırda kollektiv Qərbin strateqlərinin, o cümlədən anqlosaksonların baş sındırdığı əsas məsələ budur. Ona görə də biz Ukraynanın qələbəsini istədiyimiz tezlikdə görməyə biləriк. Yəni bu uzadılma məqsədyönlüdür və burada o strateji məqam nəzərə alınır ki, Ukrayna ildırım sürəti ilə qalib gələrsə, bu, Putin Rusiyasını birdən-birə çıxılmaz vəziyyətə sala və özünü çıxılmaz durumda hiss edən Putin də belə bir addıma yol verə bilər. Başqa problemlər də var. Bu baxımdan hesab edirəm ki, bir qədər zamana yayılan bir müharibə olacaq. Amma çox uzun müddət çəkəcəyini də güman etmirəm. Ciddi ekspertlərin hesablamalarına görə, Ukrayna savaşının bitəcəyi ən yaxın tarix bu ilin oktyabr-noyabr ayları ola bilər. Ən geci isə il yarımdan sonra, yəni 2024-cü ilin yanvarınadək hesablanır. Bütövlükdə isə məsələnin 2024-cü ilin sonunadək bitəcəyi proqnozlaşdırılır. Düşünürəm ki, qarşıdakı il yarım həlledicidir və biz hər üç varianta hazır olmalıyıq... Və Ukrayna savaşının sonucunda Rusiya elə bir duruma düşəcək ki, bizim Qarabağda məsələni tam və qəti şəkildə həll etməyimizə qarşı çıxmaq gücündə olmayacaq. Və biz o məqamı tutmalıyıq...

> "Qarabağda tam və qəti qələbəmiz üçün kollektiv Qərblə birgə Ukraynanın yanında olmalıyıq

***- Yəni hesab edirsiniz ki, bu halda Rusiya, ümumiyyətlə, "sülhməramlı" adlanan kontingentini torpaqlarımızdan çıxarmağa məcbur olacaq?***

- Əlimizdə olan son məlumatlara görə, Ukraynaya təcavüzə başlayandan sonra Rusiya artıq Qarabağdakı kontingentinin bir hissəsini oradan çıxarıb...

***- Bu dəqiq məlumatdır, sizcə? Axı deyilənə görə, sadəcə, Ermənistandakı 104-cü bazadan çağırışçıları Qarabağa gətirib buradakı peşəkar hərbçiləri Ukraynaya aparırlar?***

- Düzdür, bu şəkildə rotasiya da var. Bilirsiniz, razılaşmaya görə, Laçın dəhlizində və Yuxarı Qarabağda Rusiyanın cəmi 1960 nəfər hərbçisi olmalıydı. Amma bilirik ki, Ukraynada savaş başlananadək Azərbaycanın həmin ərazilərində deyilən-dən qat-qat artıq qüvvə yerləşdirilib. Ona görə də Rusiya torpaqlarımızdakı qüvvələrindən nə qədər çıxarsa da, yenə orada qalan hərbçilərin sayı 1960-dan çox olur...

***- Tutaq ki, Rusiya Ukraynada uduzdu və tamamilə Qarabağdan - Azərbaycan ərazilərindən uzaqlaşdı, əlini çəkdi, Qərb, xüsusilə də, ABŞ və Fransanın "ermənilərə status" və s. tələb edən hazırkı ikibaşlı mövqelərini nəzərə alsaq, məsələnin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ədalətli həllinə dərhal imkan yaradacaqmı, yoxsa məsələnin yenə uzanma ehtimalı var?***

- Məhz bu baxımdan bir daha təkrar edirəm ki, Azərbaycan Rusiyanın Ukraynaya davam edən təcavüzü fonunda strateji seçimi düz etməlidir. Rəsmi Bakı strateji resursları yetərincə olan və qalib gəlməsi gözlənilən kollektiv Qərbin yanında olmalıdır. Qardaş Türkiyə haradadırsa, biz də orada olmalıyıq. Təhlillər göstərir ki, rəsmi Bakının düzgün seçim edəcəyi və proseslərin deyilən məcrada inkişaf edəcəyi halda elə bir an gələcək ki, Rusiyanın Qarabağda bizə qarşı çıxmağa gücü qalmayacaq, Qərbin isə bu mövzuda bizə deməyə sözü olmayacaq... Bizim də zamanımız çox az olacaq və məsələni ildırım sürətiylə həll etməli olacağıq. Fikrimcə, həmin situasiyada 72-96 saat, başqa sözlə 3-4 sutka ərzində biz Qarabağdakı yarımçıq işlərimizi həll edə biləcəyik...

***- Yəni Rusiya Güney Qafqazdan, xüsusən Qarabağdan əlini üzəndən sonra çox güman ki, Ermənistan artıq Qərbə, ABŞ-a geostrateji baxımdan o qədər də gərək olmayacaq...***

- Hazırda bir çox konkret suala cavab vermək bir qədər erkəndir. Nəyə görə? Əgər Yeni Dünya Nizamı quruculuğunda Amerika ilə anqlosakslar birgə hərəkət edəcəklərsə, bu, hadisələrin inkişafının bir variantı olacaq. Böyük Britaniya və ABŞ fərqli yollar seçəcəksə, bu da başqa bir variant kimi qarşıya çıxacaq. Hər halda biz bu günə baxsaq, rəsmi Bakının həm Londonla, həm Təl-Əvivlə yüksək səviyyəli əlaqələri var. Bu da bizə imkan verir ki, nisbətən soyuq münasibətlərimiz olan Birləşmiş Ştatlarla hər iki yöndən iş aparaq. Üstəlik, bilirsiz ki, bu saat Türkiyə ilə ABŞ arasında həm siyasi, həm də hərbi müstəvidə intensiv dialoq gedir. Bu da müsbət bir haldır. Digər tərəfdən isə Təl-Əvivlə Ankara arasında da bir sıra sahələr üzrə intensiv dialoq aparılır. Bu baxımdan düşünürəm ki, istər London "qlobal Britaniya" şüarıyla fərqli hərəkət etsin, istərsə də ABŞ-la birgə, Avropa Birliyi ilə də münasibətlərimizin bugünkü səviyyəsini nəzərə alsaq, mənə elə gəlir ki, biz strateji seçimimizi düzgün edəriksə, bir daha təkrar edirəm, Rusiyanın həmin anda Qarabağda bizə qarşı çıxmağa gücü qalmayacaq, Qərbin isə bu mövzuda bizə deməyə sözü olmayacaq...

***- Bəs Qarabağdakı işlərimiz Türkiyədə gözlənilən ictimai-siyasi proseslərdən nə dərəcədə asılıdır? Yəni o baxımdan ki, qardaş ölkədə qarşıdan prezident və parlament seçkiləri gəlir. Bəzən cəmiyyətdə sual yaranır ki, görəsən, Ərdoğanın seçkilərdə uduzacağı halda, yaqin ki, sırf Qərbə bağlı yeni iqtidar Azərbaycana, xüsusən Qarabağ məsələsində hazırkı hakimiyyət kimi münasibət bəsləyəcəkmi?***

- Bu sualınızın da cavabı, əslində, əvvəlki sualınızın içindədir. Hipotetik olaraq deyək ki, Ərdoğan seçkilərdə uduzacaq və Türkiyədə indi deyildiyi kimi, Qərbin dəstəklədiyi qüvvələr hakimiyyətə gələcək. Əgər biz strateji seçimimizi düzgün edərək Qərblə düzgün münasibətlər quracağıqsa, deməli, Türkiyədəki yeni iqtidarla da bir problemimiz olmayacaq.

İkincisi də bəllidir ki, artıq Türkiyə və Azərbaycan arasında dövlətlərarası münasibətlər strateji müttəfiqlik səviyyəsindədir. Yəni hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq o məcburdur ki, Azərbaycanla həmin müttəfiqlik münasibətlərinə və onlardan irəli gələn öhdəliklərə əməl etsin. Ona görə də bu mövzuda qayğılanmağa, narahatçılıq keçirməyə ehtiyac yoxdur...

✍ **Sultan Laçın**

# Dollar bahalaşır, manat...

**ABŞ Federal Ehtiyatlar Sisteminin son qərarından sonra dünyada dolların bahalaşması müşahidə edilir. Təbii ki, Azərbaycanın da xarici ticarətdə əsas üstünlük verdiyi dolların bahalaşmasının manatın məzənnəsinə necə təsir edəcəyi də maraq doğurur.**



"ABŞ Federal Ehtiyatlar Sisteminin uçot dərəcəsinin artırılması barədə qərarı 1994-cü ildən indiyədək ən böyük faiz artımı sayılır. Bunun da əsas səbəbi ondan ibarətdir ki, ABŞ-da digər ölkələr kimi qlobal miqyasda inflyasiya ciddi probleme çevrilib. Faiz dərəcəsi nədir? Faiz dərəcəsi pulun qiymətidir. Sadə dillə desək, Amerika dolların qiymətini artırır. Yəni, Amerika hökuməti dolları dəyərə mindirir ki, inflyasiya aşağı düşsün.

Təbii ki, dollar dəyərlənirsə, valyutalar qarşısında məzənnəsi də yüksəlməyə başlayır. Hazırda dollar səbəti üzrə dolların indeksi 105 funtdan yuxarıdır. Dollar bahalaşmağa başlayanda isə bu göstərici 92-93 idi".

■ **Bunu hafta.az-a açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib.**

Onun sözlərinə görə, son il yarımda dollar dünya valyutalarına nisbətdə təxminən 15 faiz bahalaşıb: "Təbii ki, Azərbaycan manatı dollara fiksə edilib. Dollar bahalaşdıqca manat da bahalaşır. Müsbət hal odur ki, dolların bahalaşma trendi neft və qazın qiymətinin artması trendi ilə üst-üstə düşüb. Yəni, manatın məzənnəsini dəstəkləyən əsas faktor ixrac gəlirlərimizdir, tədiyə balansında profisitin olmasıdır.

Bu da əsasən, neft-qazdan formalaşır. Hazırda da dünya bazarında neft-qazın qiyməti tarixi maksimumlardadır. Bu baxımdan dolların bahalaşması manata ciddi təzyiq formalaşdırsa da, neft və qaz qiymətlərinin yüksək olması həmin təzyiqləri neytrallaşdırır. Hökumətə imkan verir ki, dollar bahalaşdıqca manatı da dollarla bir yerdə dünya valyutalarına nisbətdə bahalaşdırsın. Bunun neqativ təsirləri təbii ki, ixrac zamanı ortaya çıxır. Amma indiki məqamda hökuməti əsas düşündürən ölkədəki inflyasiyanın səviyyəsidir. Əgər hökumət manatın dollara görə məzənnəsini buraxsa, inflyasiya daha da sürətlənə bilər. Necə ki, Türkiyədə hazırda 73-74 faiz inflyasiya var. Hökümət bunu istəmir.

> "Son il yarımda dollar dünya valyutalarına nisbətdə təxminən 15 faiz bahalaşıb

> Manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının qərarından asılıdır

Çünki ciddi problemlər, sosial gərginliklər ortaya çıxa bilər. Yəni, hazırda hökumət üçün əsas hədəf inflyasiyanın nəzarət altına alınmasıdır. Bu baxımdan həm neft qiymətlərinin yüksək olması, həm hökumətin inflyasiyanı nəzarətdə saxlamağı düşünməsi manatın dollara görə məzənnəsinin ucuzlaşdırılmasını hal-hazırdakı məqamda o qədər aktual etmir. Amma ki, dolların bahalaşmasının davam edəcəyi gözlənilir və əgər neft-qaz qiymətləri ucuzlaşarsa bu ciddi başağrısına çevrilə bilər. Lakin hazırda belə bir ehtimal, yəni, neftqazın ucuzlaşması gözlənilmir. Düşünürəm ki, 2022-ci ildə də manat dollarla fiksə edilmiş rejimdə rəqsinə davam edəcək".

"Manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının qərarından asılıdır. Yəni, bu addımın manata hansısa təsiri olmayacaq. Amma dünya valyutaları üçün təsirləri olacaq. Çünki FED-in qərarı dolların sərbəst dönərli valyutalara nisbətdə bahalaşması deməkdir".

■ **Bunu bank məsələləri üzrə ekspert Əkrəm Həsənov hafta.az-a Federal Ehtiyat Sisteminin uçot dərəcəsi ilə bağlı qərarının manata təsirlərini şərh edərkən deyib.** O bildirib ki, Federal Ehtiyatlar Sistemi (FED) uçot dərəcəsini 75 baza bəndi artıraraq 1,50-1,75 faiz aralığına çatdırıb. Bu 1994-cü ildən bəri ən yüksək artımdır: "Düzdür, bu addım dünya valyutaları üçün müəyyən təzyiqlər yaradır. Amma bir daha vurğulayım ki, manata təsirləri ciddi olmayacaq. Çünki bizim neft gəlirlərimiz də paralel olaraq artır.

Bu o deməkdir ki, dollar gəlirimiz artacaq. Bu baxımdan bizim üçün vəziyyət yaxşıdır. Eyni zamanda, Azərbaycan manatı da digər valyutalara nisbətən bahalaşacaq. Nəticədə Avropadan və digər ölkələrdən mal almaq daha sərfəli olacaq".

✍ **Sevinc**

# Deputatların maaşı artırılır

**Azərbaycanda deputatların maaşı artırılır. Bununla bağlı "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanuna dəyişiklik layihəsi parlamentin iclasında I oxunuşda müzakirəyə çıxarılıb.**

Hazırkı qanunvericiliyə əsasən, Milli Məclisin sədri 2475 manat miqdarında aylıq vəzifə maaşı alır. Milli Məclis sədrinin birinci müavini Milli Məclis sədrinin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavini - 85 faizi, Milli Məclisin komitə və komissiya sədri - 80 faizi, Milli Məclisin komissiya sədrinin müavini - 75 faizi, Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq vəzifə maaşı alır. Milli Məclisin sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komitə və komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatları hər ay vəzifə maaşlarının bir misli məbləğində vəzifə maaşına əlavə alırlar. Dəyişikliklə isə Milli Məclisin sədri 3550 manat miqdarında aylıq vəzifə maaşı alacaq. Milli Məclis sədrinin birinci müavini Milli Məclis sədrinin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavini - 85 faizi, Milli Məclisin komitə və komissiya sədri - 80 faizi, Milli Məclisin komissiya sədrinin müavini - 75 faizi, Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq vəzifə maaşı alacaq.

Milli Məclisin sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komitə və komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatları hər ay vəzifə maaşlarının iki misli məbləğində vəzifə maaşına əlavə alacaqlar. Qanuna dəyişiklik layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# Neftin qiyməti büdcə qiymətini 2 dəfədən artıq üstələyib

**2022-ci ilin beş ayında "Azeri Light" markalı xam neftin bir barrelinin orta ixrac qiyməti 106,3 ABŞ dollarına bərabər olub və ya dövlət və icmal büdcələrinin gəlirlərinin hesablanması üçün istinad götürülən qiyməti 2 dəfədən artıq üstələyib.**



Maliyyə naziri Samir Şərifov Milli Məclisin iclasında 2022-ci ilin dövlət büdcəsinə dəyişikliklərin müzakirəsi zamanı deyib. Nazir bildirib ki, 2022-ci ilin ilk dörd ayının makro-iqtisadi nəticələri ilə yanaşı, beş aylıq fiskal icra göstəriciləri və dünya neft bazarlarında müşahidə edilən dinamika cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsi üçün əsas yaradıb.

"Qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı yüksək qiymət gözləntiləri nəzərə alınaraq, iqtisadi artım proqnozları yenilənən zaman xam neftin bir barrelinin orta illik ixrac qiyməti 85 ABŞ dolları, orta illik inflyasiya isə 12,5 faiz səviyyəsində götürülmüşdür.

Bu əsasda cari il üzrə 86,6 milyard manat həcmində nəzərdə tutulmuş ümumi daxili məhsul üzrə proqnoz yenilənir və artırılaraq 115,4 milyard manata, o cümlədən qeyri-neft sektoru üzrə 65,7 milyard manata çatdırılır. Ümumi daxili məhsulun real artım sürəti 5,5 faiz proqnozlaşdırılır", - deyə nazir bildirib.

# Hökumət Azərbaycan xalqının dini iradəsini təsdiqləyir

**Azərbaycan İslam ölkəsi - dünyəvi dövlətdir. Konstitusiyamıza əsasən dövlət idarəçiliyi və qanunvericiliyi dini prinsiplərə əsaslanmır. Beynəlxalq hüquq normalarına söykənən Konstitusiyamız, millətindən asılı olmayaraq, hər bir vətəndaşın dini etiqad azadlığını tanıyır. Qanunla hər kəsə öz iradəsi ilə istədiyi dini seçməyə və azad şəkildə ibadət etməyə icazə verilir. Azərbaycanda din dövlətdən ayrı olsa da, Azərbaycan Dövləti daim dini-mənəvi dəyərlərimizə sahib çıxmaqla, onun inkişafı və qorunması üçün mümkün hər şeyi edir. Eləcə də mövcud boşluqların aradan qaldırılması üçün lazımi addımlar atılmaqla, cəmiyyətdə dinə münasibətin diqqət və qayğı, inam, sevgi üzərində qurulması yönündə işlərinə davam edir. AMEA-nın dosenti, Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi Elvüsal Məmmədov maraqlı maraqlı fikirlər söyləyib.**



**Elvüsal Məmmədov,**
AMEA-nın dosenti, Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi

## Aktual

***- Elvüsal müəllim, Azərbaycan Prezidenti öz çıxışlarında dini mədəniyyətimizi milli mədəniyyətimizin tərkib hissəsi kimi göstərir. Dini mədəniyyətimizin düzgün əsaslar üzərində inkişafı istiqamətində hansı addımlar atılır? Ümumən, Azərbaycanda dövlət-din münasibətlərini necə dəyərləndirmək olar?***

- Əlbəttə ki, Azərbaycan Prezidenti öz çıxışlarında dinə, dini dəyərlərə, dini mədəniyyətin mühümlüyünə tez-tez toxunur. Ölkə başçısı nəzərə alır ki, İslam Azərbaycan üçün özünü isbatlamış bir dindir, Azərbaycan tarixinin əsas məhəng daşını əmələ gətirir. Xüsusən də son 12-13 əsrlik tarixmizi İslamdan kənarda təsəvvür etmək mümkün deyildir. Bu nöqteyi-nəzərdən Prezident də ölkənin, dövlətin sağlam əsaslar üzərində fəaliyyət göstərməsi üçün tez-tez mənəvi-ideoloji bazaya müraciət edir. Mənəvi ideoloji baza olmasa, istənilən qurum, istənilən institut ciddi və yaxud məhsuldar fəaliyyət göstərə bilməz. Bu nöqteyi-nəzərdən Prezident də bu xalqın kimliyini əmələ gətirən əsas element olan dinə müraciət edir, onu yüksək qiymətləndirir. Bu baxımdan, Prezident öz çıxışlarında daha çox dəyərlərin mühümlüyünə toxunur. Bu dəyərlərin əksəriyyəti mədəni, tərbiyəvi, didaktik dəyərlərdir. Öz başlanğıcını bu və ya digər şəkildə dindən götürür, yaxud öz başlanğıcını ümumi ənənədən götürsə də, möhkəmliyini və davamlılığını dindən alır, dinlə təmin edir. Prezident bu nöqteyi-nəzərdən dəyərlərə əhəmiyyət verir. Daha sonra dinin institutlaşmış ifadəsi hesab olunan məscidlərin bərpa olunmasına, inşasına xüsusi diqqət ayırır. Qarabağın özündə də daha çox məscidlərə diqqətin ayrılması özülü atılan, yaxud bərpa edilməsinə başlanılan ilk məscidlər olması da dediyimiz mətləblərdən xəbər verir.

***- Azərbaycanda məscidlərin, dini məbədlərin bərpası, cənab Prezidentin Məkkəyə ziyarəti, işğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına xüsusi diqqətin göstərilməsi nəyi ifadə edir? Dövlət başçısı və Birinci xanım tərəfindən Ağdam, Şuşa məscidlərinin ziyarət edilməsi, ora Quran gətirilməsi və digər addımlar, eləcə də Heydər Əliyev Fondunun bu sahədə gördüyü işlər irqindən, dinindən asılı olmayaraq ölkə və ölkədən kənarda ictimaiyyətə hansı mesajları verir?***

- Məscidlərin bərpa edilməsinə, yeni ibadət ocaqlarının tikilməsinə verilən dövlət səviyyəli diqqət çox ciddi mesajları ehtiva edir. Hər şeydən öncə ölkə daxilinə belə bir əmin mesaj verir ki, dövlət din məsələsində xalqla eyni cərgədə dayanmışdı. Dövlət dindən uzaq deyildir, əksinə, dinlə mənəvi cəhətdən bağlıdır, dinə böyük əhəmiyyət verir. Hökumət Azərbaycan xalqının dini iradəsini, dini kimliyini təsdiqləyir. Bunun üçün də ölkə daxilində dindarlara dövlətin, hökumətin də dinlə bütövləşməsi, dinin yanında olma mesajı verilir. Əsas mesaj isə daha çox kənara yönəlmişdir. Bu, əsasən də ermənilərə verilən mesajdır.

Azərbaycan Hökuməti, ölkə başçısı ermənilərə belə bir ciddi mesaj verir ki, bu torpaqlar türk torpaqlarıdır, bu torpaqlar müsəlman torpaqlarıdır, bu torpaqlarda xaçın, yaxud kilsənin hegemonluğu son dövrlərə aiddir. Burada həmişə hilalın, məscidin mənəvi hakimiyyəti olmuşdur. Bununla yanaşı, ölkə başçısı Azərbaycanda dini vəziyyətin təhlili zamanı qərəzliyə yol verən ayrı-ayrı qurumlara da mesaj vermiş olur ki, Azərbaycanda heç də bəzilərinin iddia etdiyi kimi, dindarlar sıxışdırılmır. Bu, yerində verilmiş mesajdır.

***- Azərbaycanda İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında Prezidentin iştirak etməsi, din sahəsində milli kadrların hazırlanmasının əhəmiyyəti ilə bağlı görülən işlər bizə ümumən hansı dəyərlərin inkişafını vəd edir, bu istiqamətdə nələri söyləmək olar?***

- Azərbayan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında Prezidentin iştirak etməsi bir daha göstərdi ki, Azərbaycanda hökumət dini düzgün əsaslar üzərində cəmiyyətdə yenidən bərqərar olmasını istəyir. Dövlət dinin cəmiyyətdə möhkəmlənməsinə qarşı deyildir. Biz müsəlman ölkəsiyik, dövlət də mənən müsəlman kimliyinə sahibdir. Bunu hökuməti təmsil edən ayrı-ayrı subyektlər də düzgün qiymətləndirir və başa düşürlər. Ona görə də hökumət çalışır ki, Azərbayanda dinin cəmiyyətdə yenidən bərpa olunması düzgün qaydada getsin. Tarixin dinə münasibətdə özünü göstərən ayrı-ayrı hallarda bəzən görürsən ki, dağıdıcı, ya da yaradıcı, qurucu ola bilir. Əlbəttə, dövlət dinə institusioal qayğı göstərməklə bu ölkənin sərhədləri daxilindəki maraqları əsas götürən dindar, ilahiyyatçı subyektlər yetişsin. Həm şəriəti, həm dini yaxşı bilsinlər, amma hər

> *Dövlət maraqlıdır ki, dindən istifadə edən ayrı-ayrı ünsürlər ölkə daxilində dini zəmində qeyri-stabillik yaratmasınlar*

şeydən əvvəl bu ölkənin nöqteyi-nəzərlərini əsas götürsünlər. Problemlərə bu ölkənin prizmasından yanaşsınlar. Hökumət çalışır ki, yerli, bizə daha da doğmalaşmış ilahiyyatçı kadrlar ölkədə din sahəsindəki bu və ya digər problemləri həll edən tərəf kimi çıxış etsinlər. Əksinə, onları böyüdən, əlavə problemlər yaradan subyektlər kimi deyil. Kənarda təhsil alıb gəlmiş ilahiyyatçı subyektlər daha çox problem yaratmaqda, problemləri mürəkkəbləşdirməkdə, tarixi hadisələrin əsasında ideoloji soyuqluq, yaxud təfriqəçilik yaratmaqla məşğuldurlar. Bunu heç kəs inkar edə bilməz. Məzhəbçilik, bu və ya digər dövlətin maraqlarının din pərdəsi altında ölkədə təbliği - hamısı Azərbaycan Hökumətinin əsaslı şəkildə narahat olduğu məsələlərdir, İlahiyyat İnstitutunun yaradılması bir daha onu göstərir ki, Azərbaycan Hökuməti dini məsələyə ikincidərəcəli məsələ kimi baxmır. Əksinə, o maraqlıdır ki, bu ölkənin əsas dəyəri hesab olunan İslam cəmiyyətdə daha sağlam, daha düzgün qaydada özünə yer etsin.

***- Bu dövr ərzində ölkəmizdə məscidlərin - Bibiheybət, Təzəpir, Şamaxı cümə və s. ibadət yerlərinin yüksək səvyyədə bərpa olunması, dini məbədlərin tikintisi və əsaslı bərpası ilə bağlı statistikaya nəzər salsaq, hansı mühüm amillərin üzərində dayanmaq olar?***

- Əlbəttə ki, dindən sui-istifadə edənlər həmişə olmuşdur. Eyni zamanda, Azərbaycan cəmiyyətində müasir dövrdə ən böyük problem dəyərlərin, müqəddəs adlanan anlayışların tənəzzülə uğramasıdır. Bunlar təkcə fərdlərin timsalında deyil, artıq ayrı-ayrı qrupların timsalında tənəzzülə uğrayıb. Bu tənəzzül sosial probleme çevrilmişdir. Şübhəsiz, mənəvi tənəzzüldə cəmiyyəti ayaqda saxlayan ən ali-mənəvi immunitet inamdır, Allaha olan inancdır. Din düzgün tətbiq olunduqda, başa düşüldükdə mənəvi aşınmaya qarşı ən əsas faktor kimi çıxış edir. Biz dinin yaratdığı müqaviməti mənəvi müqavimət adlandırırıq. İnsanlar bu iman immunitetinə sahib olmaqla mənəvi, aksioloji aşınmanı ya ləngidə bilirlər, ya da onu saxlayırlar. Eyni zamanda görürsən ki, ayrı-ayrı dindar subyektlərin hərəkətləri dinin adına xələl gətirir.

Bu da cəmiyyətdə, xüsusən sosial şəbəkələr vasitəsilə həmin dindar subyektlərin yarıtmaz yanaşma təzini, dinə baxışını əsas götürən destruktiv şəxslərin də dəyirmanına su tökmüş olur. Ona görə də biz maraqlı olmalıyıq ki, dini təmsil edən kadrlar, dini təmsil edən dindarlar, ilahiyyatçılar, məscid imamları ali dəyərləri, Quran dəyərlərini, sünnə dəyərlərini layiqincə təmsil etsinlər, insanlara ümid işığı olsunlar. Bir tərəfdən həm layiqli kadr yetişdirməklə, sağlam ilahiyyatçı subyektlərin düzgün fəaliyyətini təmin etmiş olacağıq, həm də dini dəyərlərdən sui-istifadə edən ayrı-ayrı dindar subyektlərin də fəaliyyətini məhdudlaşdıracağıq.

Həmişə dindən istifadə edənlər olmuşdur. Müstəqillikdən sonra Azərbaycan Dövləti ölkədə ölkə mədəniyyətinin əsas hissəsi hesab olunan dinin cəmiyətdə düzgün bərqərar olması üçün özünün tədbirlərini ardıcıl şəkildə həyata keçirir.

Əlbəttə, dövlət maraqlıdır ki, dindən istifadə edən ayrı-ayrı ünsürlər ölkə daxilində dini zəmində qeyri-stabillik yaratmasınlar. Əlbəttə, dövlətin özünün, ölkə başçısının, Birinci vitse-prezidentin dinə diqqət və qayğısı, həm də ona görədir ki, dinə münasibətdə sui-istifadə mövqeyindən çıxış edənlər və yaxud məsələyə praqmatik yanaşanlar belə bir bəhanədən, iddiadan çıxış etməsinlər ki, ölkədə dinə dövlət səviyyəsində qayğı yoxdur. Bu nöqteyi-nəzərdən ictimai yanaşmada da, əslində, ölkənin gələcək təhlükəsizliyini görə bilənlər, ölkədə stabilliyin əhəmiyyətini başa düşənlər dövlətin bu istiqamətdəki addımlarını müsbət qiymətləndirirlər.

*✍ Tahirə Qafarlı*

# Yeni cərimələr müəyyən edilir



**Azərbaycan vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadəetmə qaydası haqqında qanunvericiliyin pozulmasına görə yeni cərimələr müəyyən edilir.**

Bu barədə məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə dəyişiklikdə əksini tapıb. Belə ki, məcəlləyə yeni - 179-1-ci maddənin əlavə edilməsi təklif edilir.

Yeni maddəyə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadəetmə qaydasında hazırlanan və Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun ( qərar) layihəsinin dəstəklənməsi üçün dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplamasında iştirak etməsinə görə vəzifəli şəxslər 500 manatdan 800 manatadək məbləğdə, hüquqi şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə ediləcək. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı imza toplanması prosesini və “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadəetmə qaydası haqqında” qanunda nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, təşkilatların, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə olunmasına görə fiziki şəxslər 200 manatdan 400 manatadək, vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə, hüquqi şəxslər 4000 manatdan 6000 manatadək məbləğdə cərimə ediləcək. Cinayət Məcəlləsinə təklif edilən yeni - 161-1 maddədə isə qeyd edilib ki, vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imzaların toplanması prosesində vətəndaşları imza qoymağa məcburetmə və ya imza qoymağa mane olma, yaxud bunlara hər hansı formada mükafatlandırma 1500 manatdan 2500 manatadək miqdarda cərimə və ya 240 saatdan 300 saatadək ictimai işlərlə cəzalandırılacaq. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.


# “Azercell” məhsulları artıq “Azərpoçt” məntəqələrində! (R)




**“Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədinə sadiq qalan ölkənin lider mobil operatoru “Azercell Telekom” abunəçiləri üçün rahat bağlantını təmin etmək məqsədilə mobil operatorlar arasında ilk dəfə olaraq “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyət ilə yeni formatda əməkdaşlığa başlayır.**

Belə ki, hazırda Bakı və Abşeron üzrə “Azərpoçt” məntəqələrində Azercell-in ödəmə kartları və digər xidmətlərinin göstərilməsi artıq təmin olunub. Xidmətlərin gələcəkdə bütün ölkəni əhatə etməsi nəzərdə tutulur. Qeyd edək ki, həmin məntəqələrdə xüsusi təlim keçmiş “Azərpoçt” əməkdaşları abunəçilərin Azercell xidmətləri ilə bağlı suallarını cavablandıracaq, bir çox müştəri əməliyyatlarını həyata keçirə biləcəklər.

Paytaxt və bölgələr boyu fəaliyyət göstərən Azercell Müştəri Xidmətləri Mərkəzləri, Azercell Eksklüziv ofisləri, və Azercell-in rəsmi diler məntəqələrində abunəçilər üçün mümkün olan xidmət çeşidləri yaxın zamanda Azərpoçt məntəqələri vasitəsilə də vətəndaşlara təqdim ediləcək.

Xatırladaq ki, “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti əhaliyə ənənəvi poçt xidmətləri, bank, sığorta və s. kimi qeyri-ənənəvi xidmətlər, elektron ödənişlər, depozitlər və s kimi maliyyə xidmətləri, eləcə də, elektron hökumət və biznes xidmətlərini təqdim edir. Ölkəmizin ən qədim rabitə qurumu olan Azərpoçt ilə ölkənin aparıcı mobil rabitə operatoru “Azercell Telekom”-un əməkdaşlığı hər iki təşkilat üçün əhaliyə daha rahat və keyfiyyətli xidmət göstərməyə imkan yaradacaq.




**■ Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə “Abituriyent” jurnalının 12-ci sayında qeyd edilən IX sinfi bitirən 38 şagirdin oxuyub-yaza bilməməsi məsələsinə münasibət bildirib.**

Məleykə Abbaszadə deyib ki, bu rəqəm ona görə qeyd edilir ki, ictimaiyyət hər bir şəxsin təhsil trayektoriyasını imtahan vasitəsilə izləməyin mümkün olduğunu bilsin: “Bu rəqəmlər müəyyən illərdə daha yüksək idi. Səbəbləri biz də bilirik ki, onların çoxu məktəbdən uzaqlaşan uşaqlardır. Biz jurnalda ümumi və tam orta təhsil səviyyələrini bitirməyənlərin sayını da vermişik. Həmin uşaqları imtahan vaxtı yoxlaya bilməmişik, çünki onlar heç buraxılış imtahanına gəlib çata bilməyiblər.



**■ Litvadan keçməklə Kalininqrad vilayətinə malların tranzitinə qoyulan qadağaya Rusiyanın cavabı praktiki sahədə olacaq.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib. ”Cavab tədbirlərinə gəlincə, onlar qurumlararası formatda hazırlanır... Onlar diplomatik deyil, praktiki müstəvidə olacaq”, - deyə rusiyalı diplomat qeyd edib. Zaxarova vurğulayıb ki, Rusiya Litvaya və Avropa İttifaqına bu cür hərəkətlərin qəbuledilməz olduğunu və görülən tədbirlərin dəyişdirilməsi və vəziyyətin hüquqi məcraya qaytarılması lazım olduğunu bildirib: “Cavabın nə olacağı və nə vaxt veriləcəyi hələ də müzakirə olunur, bu həm də Vilnüsün tranzit qadağasını ləğv etməyə razı olub-olmamasından asılıdır”.



**■ “Məcburi köçkün soydaşlarımıza pay torpaqları veriləcək”. Bunu APA-ya müsahibəsində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib.**

Emin Hüseynov deyib ki, Azərbaycanda mövcud qanunvericilik var. İşğaldan azad olunmuş ərazilərdə də vaxt gələndə mövcud qanunların tətbiqi mexanizmi müəyyənləşəcək: “Ola bilər ki, müəyyən dəyişikliklər olsun. Bəli, bizdə özəlləşdirmə prosesi və özəlləşdirmə haqqında qanunlar işğaldan sonra həyata keçirildi və faktiki olaraq o bölgələrdən köçkün düşmüş soydaşlarımızın əlində mülkiyyət sənədləri yoxdur.



**■ Ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatında nəzərə alınacaq müddət artırılır.**

Bu barədə məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılan “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” qanuna dəyişiklikdə öz əksini tapıb. Dəyişikliklə əmək fəaliyyəti müddətindən əlavə olaraq əmək fəaliyyətinə aid olmayan, lakin sığortaolunanın “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən sosial sığorta stajına daxil edilən dövrlərin nəzərə alınması, o cümlədən avtomatlaşdırılmış pensiya təyinatında, habelə sığortaolunanın ölümü ilə əlaqədar olaraq onun ailə üzvlərinə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatında bütün dövrlərin nəzərə alınması nəzərdə tutulur.



**■ Uşaqlar üçün yay düşərgələrinin sayı çox məhduddur. Hafta.az-ın məlumatına görə, bunu Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri üzrə Komitəsinin sədri Hicran Hüseynova Milli Məclisin dünən keçirilən iclasında 2022-ci ilin dövlət büdcəsinə dəyişikliklərin müzakirəsi zamanı deyib.**

Onun sözlərinə görə,bir neçə qurumun nəzdində yay düşərgələri var və onlar bunu daha çox öz işçiləri üçün yaradıblar. ”Ölkəmizdə yaxşı bir təcrübə var idi ki ,Həmkarlar İttifaqının nəzdində belə bir müəssisələr açılırdı. Düşünürdüm ki, uşaqlar üçün yay istirahət düşərgələri də Həmkarlar İttifaqının nəzdində yaradılsın”, - deyə H. Hüseynova əlavə edib.



**■ İşğaldan azad edilmiş ərazilərə ayrılan vəsaitlər hesabına 2022-ci ildə 18 layihənin və 5 avtomobil yolunun başa çatdırılması nəzərdə tutulur.**

Bunu Milli Məclisin iclasında “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsinin (birinci oxunuş) müzakirəsi zamanı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib. O qeyd edib ki, bölüşdürülməmiş xərclərin bir hissəsinə yenidən baxılan zaman qurumlar üzrə bölgüsü də dəyişir. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün bu il dövlət büdcəsindən əlavə olaraq 470 milyon manat vəsaitin ayrılması təklif edilir.

# Bu il hansı ixtisas qruplarında rəqabət yüksək olacaq?

**Məlum olduğu kimi, ali məktəblərə qəbul imtahanlarının birinci cəhdi artıq başa çatıb. İndi yaz imtahanında əldə etdiyi nəticəyə qane olmayan abituriyentlər yay qəbul imtahanlarına hazırlaşırlar. Hazırda bütün abituriyentlərin əsas hədəfi imtahanda yüksək nəticə əldə etməkdir ki, ixtisas seçimi zamanı ciddi problemlə qarşılaşmasınlar. Qeyd edək ki, III ixtisas qrupu üzrə ikinci şans imtahanı iyulun 6-sı, II ixtisas qrupu üzrə iyulun 7-si, I və IV ixtisas qrupları üzrə isə iyulun 20-21-də keçiriləcək. Maraqlıdır, görəsən, bu il müsabiqə zamanı formalaşan keçid ballarında dəyişiklik proqnozlaşdırılırmı?**



## Təhsil

Ötən il ali təhsil müəssisələrinin ayrı-ayrı ixtisaslarına müsabiqə zamanı formalaşmış keçid balları nə qədər olub? Bu il dövlət sifarişli yerlərin sayında artım gözlənilirmi? Yeri gəlimkən xatırladaq ki, ötən il ali təhsil müəssisələrinin müsabiqəsində 66 464 nəfər iştirak edib. Onlardan 44 861 nəfəri (o cümlədən 6810 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 21 856 (o cümlədən 920 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 23 005 (o cümlədən 5890 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ötən il müsabiqə zamanı formalaşmış keçid ballarına gəlincə, yüksək bal toplayan abituriyentlərin daha çox seçim etdiyi Bakı Ali Neft Məktəbində minimum keçid balı 400 bal olub. Azərbaycan Tibb Universitetində ötənilki keçid balları Müalicə işi ixtisası üzrə Azərbaycan bölməsində minimum bal 595, Rus bölməsi üzrə 602.4, İngilis dili bölməsində isə 666.3 olub. Stomayologiya ixtisası üzrə minimum keçid Azərbaycan bölməsində 577.9, Rus bölməsində 582.1 olub. İctimai Səhiyyə ixtisası üzrə minimum keçid Azərbaycan bölməsində 545.5, Rus bölməsində isə 547.1 bal olub.

> *Bu il ümumi qruplar üzrə müsabiqədə iştirak edənlərin sayı həddindən artıq çoxdur*

Əczaçılıq üzrə keçid Azərbaycan bölməsində 524, Rus bölməsində isə 512.3, Fizioterapiya ixtisası üzrə 567.7 bal, Tibb bacılığı ixtisası üzrə isə 488.9 bal olub. Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) minumum keçid balı 200 bal təşkil edib. Ötən il Bakı Slavyan Universitetində ən aşağı keçid balı "Regionşünaslıq" (Rusiya üzrə) (rus bölməsi, əyani təhsil forması) ixtisasında 152.6 bal olub. Əən yüksək keçid balı "Xarici dil müəllimliyi" (ingilis dili) ixtisasında olub. Həmin ixtisasın ödənişli keçid balı 450.4, dövlət sifarişli keçid balı isə 535.8 bal olub. Ötən il Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti və Azərbaycan Texniki Universitetinin hər birində minimum keçid balı 200 olub.

2020-ci ildə isə Bakı Dövlət Universitetində 1-ci qrup üzrə ən aşağı keçid balı Fizika müəllimliyi (ingilis dilində), Geologiya, Geologiya və geofizika mühəndisliyi ixtisasları üzrə keçid balı 200 olub. BDU-da ən yüksək bal 577 bal olub ki, bu da Kompüter elmləri (ingilis dilində) ixtisası üçün müəyyən olunub. Azərbaycan Neft və Sənaye Universitetində isə bakalavrlarda 1-ci qrupdan 200 balla Cihaz mühəndisliyinə (ingilis dilində) qəbul aparılıb. ADNSU-da ən yüksək bal 625 - İnformasiya texnologiyaları (ingilis dilində) ixtisasında olub. Müqayisə üçün deyək ki, 2020-ci ildə də ixtisaslar üzrə keçid balı ən yüksək Bakı Ali Neft Məktəbində qeydə alınıb. Belə ki, İnformasiya təhlükəsizliyi (tədris ingilis dilində) ixtisası üçün 689 bal tələb olunub. Bu universitetdə minimal bal Neft-qaz mühəndisliyi ixtisası üzrə 592 təşkil edib. Azərbaycan Texniki Universiteti və Memarlıq və İnşaaat Universitetində ən aşağı bal 200, ən yuxarı bal 324 və 438 bal təşkil edib.

Azərbaycan Pedaqoji Universitetində ən aşağı bal müəllimlik ixtisasları üzrə 200, ən yuxarı 450 bal müəyyən olunub. Dövlət İqtisad Universitetində (UNEC) İnformasiya təhlükəsizliyi ixtisası üzrə ən yüksək keçid balı 491, ən aşağı bal Materiallar mühəndisliyi və digər ixtisaslar üzrə 200 təşkil edib. Bakı Mühəndislik Universitetində minimal keçid balı Fizika müəllimliyi üzrə 200, maksimal isə Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə 433 bal olub. Prezident yanında Dövlət İdarəçilik Akademiyasında Kompüter elmləri ixtisasına keçid balı 620 təşkil edib. ADA-da minimal 540 və maksimal 554 bal müəyyən olunub ki, bu da Kompüter elmləri (ingilis dilində), İnformasiya texnologiyaları (ingilis dilində) ixtisasları üçün keçərlidir. Azərbaycan Universiteti, Qərbi Kaspi Universiteti və Xəzər Universitetində minimal 200, maksimal isə 487 bal olub.

### Builki nəticələr ötən illə, təxminən. eynidir

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi deyib ki, bu il yaz imtahanlarında abirutiyetlərin göstərdiyi nəticələr yaxın 2-3 il ərzində qəbul imtahanlarında qeydə alınan nəticələrlə təxminən eynidir:** "Biz yalnız buraxılış imtahanında ötən illərlə müqayisədə aşağı nəticələr müşahidə etmişik. Belə ki, təxminən 23-24 min nəfər 0-50 arası bal toplayıb. Amma blok imtahanının nəticəsi və yaxud iki imtahanın nəticəsi əsasında onu demək olar ki, ümumi nəticə ötən ildən bir qədər yaxşıdır. Bu da onu deməyə əsas verir ki, 2022-ci ildə müvafiq olaraq bəzi ixtisas qruplarında ixtisaslar üzrə keçid ballarında artım ola bilər. Təbii ki, bununla bağlı ikinci şans imtahanından sonra daha dəqiq fikir yürütmək mümkün olacaq. Bilirik ki, DİM tərəfindən formalaşdırılmış konkret müsabiqə şərtləri var. Müsabiqə şərtlərinə əsasən, bütün qruplar üzrə ümumi 200 bal tələb olunur. Bunun 100 balını abituriyent blok imtahanından əldə etməlidir. Əgər abituriyent 100 bal həddini toplayarsa, bu zaman o, dövlət sifarişli və ya ödənişli bütün ixtisasların müsabiqəsində iştirak etmək hüququ qazanır. Yox, əgər abituriyent blok imtahanında 50-100 bal nəticə göstərirsə, o zaman hər bir ixtisas üçün 150 ballıq yerlərin müsabiqəsində iştirak edə bilər. Bu yerlər Nazirlər Kabineti və DİM arasındakı razılaşma əsasında formalaşıb. Nazirlər Kabineti hələ ki, yeni tədris ili üzrə ali təhsil müəssisələri üçün plan yerlərinin sayını açıqlamayıb və yaxın günlərdə açıqlayacaq. Ümumi müsabiqə vəziyyətinə əsasən deyə bilərik ki, bu il ümumi qruplar üzrə müsabiqədə iştirak edənlərin sayı həddindən artıq çoxdur. Bu il I ixtisas qrupu təxminən 16-17 min nəfər müsabiqədən kənarda qalacaq. II ixtisas qrupu üzrə 8-9 min abituriyentin müsabiqədən kənarda qalma ehtimalı var. III ixtisas qrupuna gəldikdə isə bu il həmin qrupda vəziyyət ötən ilə nisbətən bir qədər yaxşıdır. Plan yerləri artıb. Ötən ilə nisbətən müsabiqədə iştirak edənlərin sayında da artım var deyə, böyük rəqabət olacaq. Ümumilikdə nəzər yetirsək, burda təxminən 8-9 min abituriyent müsabiqədən kənarda qalacaq.

IV ixtisas qrupunda isə ən gərgin vəziyyət proqnozlaşdırırıq. Bu il hətta müvafiq ixtisaslar üzrə keçid ballarında artım gözlənilir. Yüksək nəticə göstərənlərin demək olar ki, böyük əksəriyyəti bu qrupdadır. Bu qrup üzrə ilkin mərhələdə təxminən 1500-2000 nəfərin ümumi müsabiqədən kənarda qalma ehtimalı var. Hesab edirəm ki, abituriyentlər ikinci şans imtahanından sonra nəticələrini bir qədər də yaxşılaşdıracaqlar".

### Yüksək bal toplayan abituriyentlərin favorisi hansı ali məktəblərdir?

**Ekspert öz açıqlamasında həmçinin bu il hansı ali məktəblər və ixtisaslar arasında rəqabətin yüksək olacağını da açıqlayıb: "I ixtisas qrupunda əsasən, informasiya və kompüter sahəsi üzrə olan ixtisaslarda ciddi rəqabət olacaq.**

Bu ixtisas qrupunda əsas rəqabət aparan ali məktəblər isə Bakı Ali Neft Məktəbi, ADA, Prezident yanında Dövlət İdarəçilik Akademiyası olacaq. Yüksək nəticə göstərənlər əsasən bu üç ali məktəb arasında seçim edirlər. II ixtisas qrupunda yenə Bakı Ali Neft Məktəbi, ADA və UNEC rəqabət aparacaqlar. III ixtisas qrupunda BDU, ADA, Dillər Universiteti və Pedaqoji Universitet arasında rəqabət olacaq. IV ixtisas qrupunda isə tibb istiqamətində böyük rəqabət gözlənilmir. Amma pedoqoji ixtisaslarda BDU, BMU və Pedoqoji Universitet arasında rəqabət ola bilər".

E.Əfəndi həmçinin onu da vurğulayıb ki, bu il ali məktəblərdə dövlət sifarişli plan yerlərinin sayında artım gözlənilir: "Bu, əsasən, birinci və üçüncü ixtisas qrupları üzrə baş verəcək. Ümumilikdə isə demək olar ki, bu ilki qəbul ilində 50 faiz 50 faiz nisbətində artım gözləyirik. Yəni, əgər hazırda universitetlər olaraq biz 50 minə yaxın tələbəni qəbul etmək potensialına malikiksə, onların təxminən 25 mini ödənişsiz, dövlət vəsaiti hesabına təhsil almaq imkanı qazanacaq. Ümumilikdə isə bu il digər statusu olanlarla yanaşı, təxminən 27-28 minə yaxın şəxsin pulsuz təhsil almaq imkanı olacaq".

Ekspert qəbul imtahanlarında balların artıb-azalması məsələsinə də toxunaraq deyib ki, istənilən halda DİM balları artırıb-azaltmır: "Cəmiyyətdə yanlış fikir formalaşıb ki, qəbul imtahanlarında balları DİM artırıb-azaldır. Əslində balların azalıb-artmasına məsul abituriyentlərdir. Məsələn, Bakı Ali Neft Məktəbi İnformasiya təhlükəsizliyi ixtisasına müvafiq olaraq 10 yer ayırıb. Ancaq buraya 200 nəfər müraciət edib. Bu zaman əgər 200 nəfərin içərisində 10 nəfərin balı 680-dirsə, demək, həmin ixtisasın balı 680 olacaq. Əgər 10-cu şəxsin balı 650 olacaqsa, onda ixtisasın balı da 650-yə düşəcək. Yenə deyirəm, bu vəziyyəti formalaşdıran şəxslər yalnız abituriyentlərdir. DİM bununla bağlı heç bir fəaliyyət həyata keçirmir".

> *Abituriyentlərin qəbul imtahanlarında göstərdikləri nəticə onların real biliklərini əks etdirmir*

### Maksimum bal toplamaq təhsilin keyfiyyət göstəricisi deyil, amma...

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Elşən Qafarov isə hesab edir ki, abituriyentlərin qəbul imtahanlarında göstərdikləri nəticə onların real biliklərini əks etdirmir: "İmtahanlar abituriyentlərin real bilik və bacarıqlarınən qiymətləndirilməsi fonunda aparılmalıdır.**

Düzdür, maksimum bal toplamaq təhsilin keyfiyyət göstəricisi deyil. DİM imtahanları keçirən texniki quruma çevrilənədək biz bu problemi yaşayacağıq. DİM-in öz proqramı var. İmtahan sualları şagirdlərin bilik-bacarıqlarını qiymətləndirməyə yönəlmir. DİM-in öz vəsaitləri var. Suallar həmin vəsaitlərə əsasən hazırlanır. Hesab edirəm ki, DİM-in imtahan keçirmə mexanizmi yanlışdır. Uzun zamandır biz bu yanlışlıqları desək də, dəyişən bir şey yoxdur. DİM imtahanları təşkil edən texniki qurum olsa da, görürük ki, qurum həm imtahan suallarını hazırlayır, həm imtahanları təşkil edir, həm də dərsliklər çap edir. Bu, yolverilməzdir. Bütün bu işləri Təhsil Nazirliyi görməlidir. Dünyanın heç bir ölkəsində təhsili iki qurum idarə etmir".

Ekspertin sözlərinə görə, ya Nazirlər Kabineti, ya da Prezident yanında Testalogiya İnstitutunun yaradılması vacibdir:

Hansı ki, institut nə Təhsil Nazirliyinin, nə də DİM-in səlahiyyətində olmayacaq. Bizim məqsədimiz nədir? Şagirdlərin bilik və bacarıqlarını yoxlamaqdır. Bu zaman tərtib edilən testlər və təşkil edilən imtahanlar da obyektiv olmalıdır. Hazırkı imtahanlarda obyektivlikdən danışmaq mümkün deyil. Testologiya institutu olsa, şagird və abituriyentlərin tələbələrin hazırlıq səviyyəsinə uyğun testlər tərtib edilər və hazırkı kimi aşağı nəticələr də olmaz".

✍ *Sevinc*

---

## Müsahib

**Bir həftə öncə Vətən müharibəsi qazisi Denis Quzlayevlə Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyovun qızı Regina Kovalyovanın ailə qurması xəbərini vermişdik. Milliyyətcə rus olan qazi və Milli Qəhrəman qızının izdivacı cəmiyyət arasında böyük maraqla qarşılandı. Həmsöhbətimiz Regina Kovaleva Azərbaycanın Rus İcmasının fəal üzvü olaraq, qurumun Nizami Rayon Təşkilatının gənclər qrupuna rəhbərlik edir. Həyat yoldaşı Denis Quzlayev isə Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd rayonlarının azad edilməsi uğrunda döyüşlərdə iştirak edib. Xocavənd istiqamətində gedən döyüşlər zamanı Denis ağır yaralanıb. O, bir neçə mürəkkəb əməliyyat keçirib. Hafta.az Regina Kovalyova ilə həmsöhbət oldu. Regina xanımla, özü və ailəsi haqqında baş tutan səmimi söhbətimizi sizlərə təqdim edirik.**

# "Bizi Qarabağ birləşdirdi"



***- Regina xanım, ilk öncə istərdik ki, özünüz və ailəniz haqqında məlumat verəsiniz.***

- Mən Regina Kovalyova, Milli Qəhrəman Yuri Kovalyovun qızıyam. Atamla bağlı hər zaman qürur və fəxr hissi ilə bəhs edirəm. Baxmayaraq ki atam 26 yaşında şəhid olub, ancaq onun döyüş yolu haqqında çox şey demək olar. Həm döyüş yoldaşları, həm ailəm, anam və nənəm bu barədə mənə hər zaman danışıblar.

***- Milli Qəhrəmanın övladı olmaq həyatınıza nə cür təsir edib? Yəqin ki, üzərinizdə bu məsuliyyəti hiss etmisiniz.***

- Bəli, Milli Qəhrəman qızıyam və bu məsuliyyəti həyatımın hər anında hiss edirəm. Heç vaxt unutmuram ki, mənim atam kimdir.

***- Həm özünüz, həm də həyat yoldaşınız milliyyətcə azərbaycanlı deyilsiniz. Bəlkə elə buna görə vətənpərvərliyiniz və evliliyiniz insanlar arasında daha xoş qarşılandı.***

- Cəmiyyət arasında toyumuzun maraqla qarşılanması bizim üçün çox xoş oldu. Buna görə hər kəsə təşəklür edirik.

Doğrudur, milliyyətcə azərbaycanlı deyilik, amma hər zaman deyirəm və indi də vurğulamaq istəyirəm ki, Azərbaycanın övladıyıq. Bu ölkə bizim doğma yurdumuzdur. Ailəmizdə vətənpərvərlik mövzusu heç zaman sual altında olmayıb.

***- Həyat yoldaşınızla harada və nə cür tanış olmusunuz? Əminəm ki, bu sual oxucularımıza da maraqlıdır.***

- Mən Denislə Tədris Cərrahiyyə Klinikasında tanış olmuşam.

Müharibə zamanı gündüzlərin və gecələrin sayını itirmişdim. Müharibənin başladığını öyrəndiyim an dərhal atamın döyüş yoldaşları ilə əlaqə saxlayıb məlumat almağa çalışdım. İşlədiyim Rus Gəncləri Assosiasiyasında siyahılar var idi. Hansı ki, burada döyüşçülər haqqında məlumatlar qeyd edilmişdi. Mənim siyahımda isə ümumiyyətlə Denisin adı yazılmamışdı. Əmim Vitali Kovalyov zəng vurub dedi ki, Tədris Cərrahiyyəsi Xəstəxanasında bizim bir qazimiz var. Onu ziyarətə gedirik. Əmim bunu deyəndə dərhal siyahını yoxladım və gördüm ki, burada Denisin adı yoxdur. Daha sonra xəstəxanaya getdik, orada Denislə tanış olduq, söhbətləşdik. Hər şey aramızdakı dostluqdan başladı. O mənə müharibədən əvvəlki fotolarını göstərdi. Daha sonra dedi ki, "İndi də hazırkı halıma bax. Bu vəziyyətdə məni kim sevəcək?". Mən də cavabımda "Heç narahat olma, əmin ol, həyatına elə bir xanım çıxacaq və səni o qədər gözəl sevəcək ki, çox xoşbəxt insan olacaqsan", - söylədim. Kim deyərdi ki, o qadın mən olacağam? Bu, Allahın bir qisməti idi. Qismət həmin gün məni Tədris Cərrahiyyəsi klinikasına gətirdi. Ondan sonra hər gün xəstəxanaya gedib həm Denisi, həm də digər qazilərimizi ziyarət edirdim.

***- Denisdə aşiq olduğunuz, sizi ona heyran edən xüsusiyyətlər nələrdir?***

- Denis çox yaxşı insandı, gözəl qəlbə sahibdir. O, əməliyyatına 2 gün qalmış mənə öz hisslərini dedi. Mən də ona bildirdim ki, sən indi sağlamlığın haqqında düşün, bu barədə isə sonra danışarıq. Ürəyimdə ona qarşı rəğbət var idi. Denis əməliyyata girdi. Mən 7 saat boyunca onu küçədə gözlədim. Denis palataya gətiriləndə bir qazi mənə bu barədə məlumat verdi.

Bir neçə saatdan sonra xəstəxanaya qalxdım və palataya girib, Denisə yaxınlaşdım. Əllərindən tutub, öz hisslərimi dedim. Baxmayaraq ki, Denis narkozun təsirində idi, bu sözləri eşidən kimi gözlərini açdı. Mən hiss etdim ki, o məni eşidir. Dedim ki, "Narahat olma, sənin yanındayam".

***- Yəqin ki, indiyə qədər aranızda atanızla bağlı müzakirələr, söhbətlər olub?***

- Əlbəttə, bu haqda söhbətlərimiz olub. Denis mənə üzük taxanda ondan xahiş etdim ki, atamın yanına gedək. Biz üzük taxılandan sonra Şəhidlər xiyabanına, atamın ziyarətinə etdik. İnanıram ki, şəhidlər ölümsüzdür. Bu günə qədər həyatımda önəmli hansı hadisə baş verərsə, dərhal atamın yanına getmişəm və hər şeyi onunla bölüşmüşəm.

***- Qəhrəman övladı olaraq, qəhrəman döyüşçü ilə ailə qurmusunuz? Necə hissdir?***

- Bilirsiniz, bu çox məsuliyyətli bir işdir. Həm də qürur duyuram ki, qəhrəman övladıyam, qəhrəman yoldaşım var. Bizi Qarabağ birləşdirib. Mən Qarabağda atamı itirmişəm, amma ora mənə Denisi verdi. Doğma torpaqlarımız bizi birləşdirdi.



***- Gələcək haqqında birgə planlarınız nələrdir?***

- Gələcəklə bağlı çoxlu planlarımız var. Ən vacibi Denisin sağlamlığıdır. Qarşıda onun 8-ci əməliyyatı var. Omu çox çətin əməliyyat gözləsə də, əminəm ki, hər şey yaxşı olacaq. Onun yanında mən, qəhrəman övladı var. Biz bir yerdə bütün çətinliklərdən keçərik. İnşAllah yaxşı olar. Mənim üçün hazırda ən vacib məsələ budur. İstəyirik ki, gələcəkdə xoşbəxt olaq və bir yerdə Qarabağa gedək.

✍ ***Banu***

***P.S. Gənc ailəyə xoşbəxtlik arzulayıb, xoş söhbətimizi yekunlaşdırdıq.***

# Azərbaycanda karavan turizmi

**Səyahət çantasını hazırlayıb, "Ayağım hara, başım da ora" ifadəsi ilə yola çıxmaq, şəhərin səs-küyündən uzaqlaşıb təbiətlə iç-içə zaman keçirmək, yəqin ki, bu günlərdə çoxlarının arzusudur. Belə plansız-proqramsız tətil imkanını sizlərə karavanlarla yolçuluq etmək yaradır. Amma... Hazırda inkişaf etmiş ölkələrin vətəndaşlarının daha çox üstünlük verdiyi bu səyahət vasitəsi ölkəmizdə elə də populyar deyil. Bu səbəbdən, yerli turizmdə karavanlardan istifadə qaydalarının standart formalara rast gəlinmir.**



## Müzakirə

Nəzərinizə çatdıraq ki, karavanlar - həyati funksiyaları minimum səviyyədə yerinə yetirə bilən, motorlu nəqliyyat vasitələrinə uyğun çarpayı, mətbəx, duş, tualet və oturacaqlarla təchiz edilmiş yaşayış yerləridir. Daha əvvəl elan saytlarına yerləşdirilmiş məlumatdan aydın olur ki, karavan kirayələyərək tətilə çıxmaq otellərdə gecələməkdən bir xeyli ucuz başa gəlir. Misal üçün, rastlaşdığımız bir elanı diqqətinizə çatdıraq: "İçində yaşamaq üçün hər cür şəraiti olan 3 nəfərlik karavanın 15 günlük icarə qiyməti 450 manatdır". Bəs görəsən, karavanlar Azərbaycana daha çox hansı ölkələrdən gətirilir və onların birgünlük icarəhaqqı nə qədərdir?

■ **Bu barədə hafta.az-a danışan nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev bildirdi ki, hazırda bizdə karavanla istirahət etmək üsulu kütləvilik almayıb. Ona görə də ölkəmizdə xaricdən karavanların gətirilməsi, onların icarəyə verilməsi və digər məsələlər aktual deyil:**

"Hazırda ölkəmizdə inkişaf nə çox irəlidir, nə də geri. Ortasəviyyəli inkişaf etmiş ölkələrə isə bəzi şeylər gec gələ bilir. Buna karavanları da misal çəkə bilərik. Hər hansı bir anlayışın, yaxud da müəyyən vasitənin ölkəyə gətirilməsi və kütləviləşməsi üçün gərək ona təlabat olsun. İndi Azərbaycanda karavanlar çox az saydadır. Bunlar da daha çox şəxsi istifadə üçün hazırlananlar və ya gətirilənlərdir. Ona görə də az sayda olan karavanların icarə qiymətləri və bu kimi digər məsələlər standart şəkildə formalaşmayıb".

> *"Ölkəmizdəki karavanların çoxu şəxsi istifadə üçün hazırlananlar və ya gətirilənlərdir"*

■ **Turizm eksperti Ceyhun Aşurov isə hesab edir ki, sahibkarların karavan alıb turizm bazarına çıxarmaları onlara yüksək gəlir vəd etmədiyindən, bu sahəyə maraqlarının olmamasına gətirib çıxarır:**

"Karavanla səyahət, turizmin ayrıca növüdür. Bu vasitə karavanın neçə günlük kirayələnməsindən asılı olaraq otel qiymətlərindən daha ucuz başa gəlir. Uzun səfərlərdə karavanla səyahət olduqca faydalıdır. Azərbaycanda karavan turizminin inkişaf etdirilməsi üçün bir neçə dəfə cəhdlər edilib. Hazırda ayrı-ayrı şəxslərdə karavan var, ancaq istifadəsi elə də yayqın deyil. Bu səbəbdən, xaricdən ölkəyə karavan gətirilməsi, buna çəkilən xərc və daha sonra onun icarəyə verilməsi haqqında məlumatım yoxdur. Düşünürəm, karavan alıb, onu yalnız yaz-yay, yaxud payız mövsümündə icarəyə vermək rentabelli deyil. Səyahətlərdə karavanların istifadəsi turizm növlərinin çeşidlənməsi baxımından çox gözəl fürsətdir". Ekspert hesab edir ki, ölkəmizin təbiəti karavanla istirahət üçün əlverişli olduğundan, onların turizm bazarına çıxarılması turizmin inkişafına böyük təkan verər. Bunun üçün dövlət müəyyən təşviq siyasəti yürütməlidir:

> *"Bəzi şirkətlər regionlarda, təbiətin qoynunda karavan yox vaqontipli evlər tikərək turistlərin ixtiyarına verir"*

"Bəzi şirkətlər regionlarda, təbiətin qoynunda karavan yox vaqontipli evlər tikərək turistlərin ixtiyarına verir. Təbii ki, karavanların üstünlüyü, belə vaqontipli evlərdən daha çoxdur. Hesab edirəm, karavanların məsrəfi çox olduğundan, hələlik sahibkarlar bu vasitədən istifadə etmirlər. Fikrimcə sahibkarların bu işdə daha çox maraqlı olmaları üçün, dövlət tərəfindən müəyyən təşfiq proqramları həyata keçirilməlidir. Ölkəmizdə karavanla istirahətin əlçatanlığı turizmçilik baxımından olduqca səmərəlidir". Qeyd edək ki, XIX əsrin sonlarında sirk işçilərinin gecələməsi üçün nəzərdə tutulmuş karvanlardan sonralar Avropada yaşayan qaraçılar istifadə etməyə başladılar. Hazırda isə bir sıra ölkələrdə bu nəqliyyat növü istirahətin əvəzsiz üsuluna çevrilib.

ABŞ hazırda da bütün dünya arenasında karavan turizmin ən yüksək səviyyədə inkişaf etdiyi ölkə sayılır.

Müasir zamanımızda Avropalılar kempinq və karavan kimi ünsürlərlə əlaqədar olaraq 10,8 milyon gecələmə hissəsi ayırmışdır. Bu Avropanın ən geniş turistik sahəsi sayılır və adi turizm biznesinə ayrılan 8,7 milyon yer deməkdir. Hazırda Almaniyada 5,2 milyon şəxs karavanlarla və onların kolleqaları olan 1,1 milyon şəxs bu turizm növünə xarici ölkələrdən axın edərək qatılırlar.

*✍ Banu Hüseynli*

## HƏFTƏ REYTİNQ

### Həftənin QADAĞASI



Ukrayna parlamenti rus kitablarına və musiqisinə bir sıra qadağalar tətbiq edib. Parlament bu barədə iki qanunu qəbul edib. Qanuna əsasən, Rusiya vətəndaşları Rusiya pasportundan imtina edib Ukrayna vətəndaşlığını qəbul etmədikcə kitab çap edə bilməyəcək. Qadağa yalnız 1991-ci ildən sonra Rusiya vətəndaşlığı olanlara şamil ediləcək. Ukrayna, həmçinin Rusiya, Belarus və işğal olunmuş Ukrayna ərazisində çap olunan kitabların idxalını qadağan edəcək, eyni zamanda üçüncü ölkələrdən rus dilində olan kitabların idxalı üçün xüsusi icazə tələb olunacaq. Digər qanunla 1991-ci ildən sonra Rusiya vətəndaşı olan şəxslərin mediada və ictimai nəqliyyatda musiqi ifa etməsi qadağan ediləcək.

### Həftənin MƏRHUMU



Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) sabiq prezidenti Eldar Salayev vəfat edib. Eldar Salayev 1933-cü ildə dekabrın 31-də Naxçıvan şəhərində dünyaya gəlib. O 1972-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı adını, 1975-ci ildə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini alıb. 1979-cu ildən professordur. Eldar Salayev 1980-ci ildə EA-nın müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilib. O 1983-1997-ci illərdə Azərbaycan EA-nın Prezidenti olub. Eldar Salayev 1997-ci ildə "Şöhrət" ordeninə layiq görülüb.

### Həftənin DƏLƏDUZU



Lənkəranda dələduzluq edən qadın saxlanılıb. Bakı şəhər sakini Lalə Zeynalova rayonda vətəndaşları aldadaraq pullarını ələ keçirib. Araşdırmalar zamanı məlum olub ki, L.Zeynalova Lənkəranda ümumilikdə 17 nəfərin etibarından istifadə edərək yüksək məvacibli işlə təmin olunmaq və digər məsələlər barədə vədlər verməklə ayrı-ayrı məbləğlərdə pulu mənimsəyib.

### Həftənin İMTİNASI




Böyük Britaniya Rusiya nümayəndə heyətinə ATƏT-in Parlament Assambleyasının növbəti sessiyasında iştirak etmək üçün viza verməkdən imtina edib. Bu barədə məlumatı rusiyalı senator Vladimir Cabarov açıqlayıb. Onun sözlərinə görə, buna baxmayaraq, Rusiya ATƏT-in Parlament Assambleyasından çıxmağı məqsədəuyğun hesab etmir.

### Həftənin QƏZASI



İspaniyanın Mayorka adasında "Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldoya məxsus "Bugatti Veyron" qəzaya uğrayıb. Ailəsi ilə birlikdə Mayorkada istirahət edən Ronaldo qəza zamanı hadisə yerində olmayıb. Avtomobili Ronaldonun köməkçisi idarə edib. Sürücü idarəetməni itirib, ikinci dərəcəli yoldan çıxıb və avtomobil yaşayış binasının yanındakı divara çırpılıb. Qeyd edək ki, 400 km/saatdan çox sürətə çata bilən avtomobilin qiyməti təxminən 2 milyon avrodur.

### Həftənin TOYU



Bir neçə gün əvvəl Bakıda baş tutan dəbdəbəli toyun görüntüləri sosial şəbəkələrdə böyük marağa səbəb olub. Videodakı avtomobillərin, eləcə də onların dövlət nömrə nişanlarının yetərincə bahalı olduğu görünür. Toy paytaxtın ən elit məkanların birində baş tutub. Tədbirdə Ukraynanın Əməkdar artisti Svetlana Loboda, gürcü müğənni Dato, Xalq artistləri Zülfiyyə Xanbabayeva, Natiq Şirinov və rəhbərlik etdiyi "Natiq" ritm qrupu, Əməkdar artist Xəyyam Nisanov və başqaları çıxış ediblər. Toyu olan Emil Telman adlı biznesmenin oğludur. Ailə uzun müddətdir Qazaxıstanda yaşayır. Emilin ailə qurduğu Aysel isə Azərbaycanda yaşayır.

*✍ Azad Əliyev*



## Ağcəbədi şəhərində yenilənmiş "Nar" mağazası fəaliyyətə başladı ®



**Azərbaycanın bölgələrinə xüsusi diqqətilə seçilən "Nar"ın növbəti mağazası Ağcəbədi şəhərində xidmətə başladı. Yeni konsepsiyalı mağazada müştərilər "Nar" xidmətlərinə daha rahat qoşula və müxtəlif abunə əməliyyatlarını həyata keçirə bilir.**

Müştəri yönümlü biznes siyasətindən çıxış edərək, "Nar" bütün ölkə boyunca mağazalarını yeniləyir və yeni mağazalar istifadəyə verir. Bu mağazalarda yalnız abunə xidmətləri göstərilmir, eləcə də telefon və aksesuar satışı həyata keçirilir. Vahid konsepsiya ilə yenilənən "Nar" mağazaları harada olmasından asılı olmayaraq hər ziyarətçiyə eyni proseduru və sorğu cavablandırmasını təqdim edir.

Qeyd edək ki, ötən ildən başlayan mağazaların yenilənmə prosesi 2022-ci ildə də davam edəcək. Yenilənəcək mağazaların mütləq əksəriyyəti bölgələri əhatə edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

## Bu yay rouminqdə "Azercell"in tarifləri ilə ünsiyyətdə sərbəst ol! ®

**"Azercell" mobil telekom bazarında bir çox üstünlükləri ilə seçilən Sərbəst paketlərinin istifadəçilərinə indi daha çox imkanlar təqdim edir. Artıq Sərbəst-i seçən abunəçilər sərfəli və rahat ünsiyyətdən yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da yararlana biləcəklər.**




İyun ayının 20-dən sentyabr ayının 15-dək Sərbəst 50 və Sərbəst 75-in fakturalı xətt abunəçiləri ölkədaxili dəqiqə və internetlə yanaşı, rouminq üçün internet trafik də əldə edəcəklər. Belə ki, yay ayları boyunca Sərbəst 50 tarif paketi çərçivəsində fakturalı xətt istifadəçilərinə ayda 50 AZN-ə 25GB internet, 2500 ölkədaxili dəqiqə, Facebook Messenger və WhatsApp tətbiqlərində pulsuz yazışma imkanından əlavə, həmçinin 1 GB həcmində rouminq internet paketi də veriləcək. Sərbəst 75 tarif paketinin abunəçiləri isə ayda 75 AZN ödəməklə 60 GB internet, 4000 ölkədaxili dəqiqə, Facebook Messenger və WhatsApp tətbiqlərində pulsuz yazışma imkanı ilə yanaşı, 2GB həcmində rouminq internet paketi də əldə edəcəklər. (ətraflı məlumat üçün: <https://www.azercell.com/az/personal/plans-and-services/mobile-tariffs/postpaid.html>)

Sərbəst tarifləri çərçivəsində təqdim edilən əlavə internet trafik Azercell-in rouminq internet paketləri qüvvədə olan bütün ölkələrdə etibarlıdır. Odur ki, Sərbəst abunəçiləri bonuslarından dünyanın ən çox ziyarət edilən 62 ölkəsində fəaliyyət göstərən 105-dən çox operatorun şəbəkəsində yararlana biləcəklər. Xatırladaq ki, Türkiyə, Rusiya, Avstriya, Belarus, Gürcüstan, İsrail, Qazaxıstan, Ukrayna və Çin kimi populyar istiqamətlərdə rouminq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, Azercell abunəçiləri prioritet operatoru seçmək zərurəti olmadan istənilən şəbəkədə internet xidmətindən istifadə edə bilərlər. Lider mobil operator xaricə səfər edən abunəçilərindən www.azercell.com <http://www.azercell.com> rəsmi internet səhifəsindən rouminq zamanı internetdən istifadə qaydaları ilə (ətraflı məlumat üçün: <https://www.azercell.com/az/personal/plans-and-services/roaming/roaming-data-packages.html>) tanış olmağı və ölkə hüdudlarından kənarda nömrəyə göndərilən ismarışları diqqət mərkəzində saxlamağı xahiş edir! Bu yay rabitə xərclərinizə Sərbəst tarif paketləri ilə qənaət edin!



## GÜNÜN FOTOSU



Buzovnada dəniz sahilindəki qanunsuz hasar və tikililər sökülür

# Hökumət Azərbaycan xalqının dini iradəsini təsdiqləyir

**Elvüsal Məmmədov,**
AMEA-nın dosenti

Dövlət maraqlıdır ki, dindən istifadə edən ayrı-ayrı ünsürlər ölkə daxilində dini zəmində qeyri-stabillik yaratmasınlar.

Səh. 6

## STATİSTİKA



■ **2022-ci ilin ölkəmizin 5 ayında strateji valyuta ehtiyatları 1.9% artaraq 54.2 mlrd. ABŞ dollarına yüksəlib. Bu barədə Azərbaycan Mərkəzi Bankından (AMB) Modern.az-a verilən məlumatda bildirilib.**

Xarici sektor göstəricilərinin yaxşılaşması və bunun gözləntilərə təsiri valyuta bazarında da özünü göstərir. Pul siyasətinə həsr olunmuş son iclasdan bəri Mərkəzi Bankda təşkil olunan valyuta hərraclarında tələbin əhəmiyyətli azalması müşahidə edilir.



Səh. 7

# Bu il hansı ixtisas qruplarında rəqabət yüksək olacaq?